**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

5 avqust 2022-ci il
№30 (8988)

www.muallim.edu.az
muallim@edu.gov.az



## Elm və təhsilin inkişafında yeni mərhələ

### Prezident İlham Əliyevin elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı Fərmanını alimlərimiz yüksək qiymətləndirir

Ötən həftə elm və təhsil ictimaiyyəti üçün əlamətdar bir hadisə ilə yadda qaldı. Belə ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalandı. Fərman elm və təhsilin vəhdət olaraq inkişafında, xüsusilə hər iki sahənin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsində mühüm rol oynayacaq. Sənəddə elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə mühüm struktur dəyişiklikləri də yer alıb. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin yaradılması da məhz elm və təhsilin inteqrasiyası baxımından atılmış islahatyönümlü çox mühüm bir addımdır.

Elə həmsöhbətimiz olan ölkəmizin elm və təhsil ictimaiyyətinin nümayəndələri, eləcə də xaricdə yaşayan və nüfuzlu universitetdə çalışan həmyerli alimimiz də bu Fərmanın elm və təhsilin qarşılıqlı surətdə əlaqələndirilməsi, inkişaf etdirilməsi işinə töhfələr verəcəyinə əmindirlər.

⇨Səh.3

## Peşə təhsilində yeni hədəflər



Bu həftə peşə təhsili sahəsində hərəkətlilik artıb. Belə ki, avqustun ilk günündən peşə təhsili müəssisələrinə elektron tələbə qəbuluna start verilib, 22 rayonda direktor, 28 rayonda isə direktor müavinlərinin, həmçinin 79 ixtisas fənn müəllimi və 211 istehsalat təlimi ustası vakansiyaları üçün peşə təhsili müəssisələrinə müəllimlərin işə qəbulu imtahanları keçirilib.

Geniş müzakirə olunan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasında növbəti addımlar atılıb.

⇨Ardı səh.6

## BU SAYIMIZDA

### Yüksək nəticə göstərən məzun



I ixtisas qrupu üzrə yüksək nəticə göstərən şagirdlərdən biri də Nihat Əlizadədir. O, fizika fənnindən 27 test tapşırığını doğru cavablandırıb və ümumilikdə 596 bal toplayaraq böyük uğura imza atıb. Nihat I qrup görmə məhdudiyyətlidir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika İnternat Məktəbində təhsil alıb. Nihat öz hədəfinə doğru yol alarkən göstərdiyi səyi, əzmi haqqında "Azərbaycan müəllimi"nə danışdı.

səh.2

### Yaddaşlara köçən təhsil fədaisi



Yaşının 90-nına çatmağına az qalan, ölkənin təhsil və ictimai-siyasi həyatında özünəməxsus rolu və yeri olan "Azərbaycan müəllimi" qəzeti mənə bu pedaqoji mətbu orqanın əməkdaşı olaraq respublikamızın bir çox tanınmış təhsil işçiləri ilə, pedaqoqlarla, sözün həqiqi mənasında ən yaxşı məktəblərlə, direktorlarla tanış olmaq, onların fəaliyyətini işıqlandırmaq imkanları verib. İllər bir-birini əvəzlədikcə iş fəaliyyətimdən dolayı tanıdıqlarım və tanıtdırmaq istədiyim təhsil qəhrəmanlarımın sayı da çoxalıb.

səh.6

### Poeziyamızda Ramiz Rövşən zirvəsi



Gözəl şeirlərin, bitkin poetik fikirlərin məni duyğulandırdığı, hisslərimi təlatümə gətirdiyi zamandan bəri həmişə düşünmüşəm ki, sözün qüdrətindən yaranan poeziya incilərindən zövq almaq və onları qiymətləndirə bilmək taleyimə bəxş olunmuş qəlb xoşbəxtliyidir və o da xəyalımdan keçib ki, məlum söz və ifadələri musiqi kimi səslənən şeiriyyat çələnginə çevirənlər, yəqin ki, sehrbazdılar, adi adamlar deyillər. Və belə düşündüyüm dəqiqələrdə nədənsə böyük Səməd Vurğunun himn səviyyəli "Azərbaycan" şeirini xatırlayırdım.

səh.8

## İnklüziv təhsilin əhatə dairəsinin genişləndirilməsi barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

“2018—2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın icrasını təmin etmək məqsədilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2022-2023-cü tədris ilində Bakı şəhəri 39, 84, 265, 300, Gəncə şəhəri 8, Sumqayıt şəhəri 25, Xaçmaz şəhəri 6, Ağcabədi şəhəri 5, Qəbələ şəhəri 3 nömrəli tam orta məktəblərdə və Xırdalan şəhəri 3 nömrəli məktəb-liseydə inklüziv siniflər təşkil edilsin.

**2.** Yerli təhsili idarəetmə orqanları sağlamlıq imkanları məhdud uşaqların psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı əsasında seçilmiş ümumi təhsil müəssisələrində inklüziv təhsilə cəlb olunmasını təmin etsin.

**3.** Fəaliyyətin koordinasiyası, qiymətləndirilməsi və hesabatlılığın təmin edilməsi Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinə (V.Yaqublu) tapşırılsın.

**4.** İnsan resursları şöbəsi (E.Bağırov) inklüziv məktəblərə xüsusi təhsil üzrə ixtisaslı kadrların cəlb olunmasını təmin etsin. Müvafiq ixtisaslı mütəxəssis olmadıqda fəaliyyətin icrası məktəb psixoloquna həvalə edilsin.

**5.** Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi (V.Mirzalıyev) müəyyən olunmuş məktəblərin infrastrukturunun sağlamlıq imkanları məhdud uşaqlar üçün müyəssərliyi ilə bağlı tədbirlər görsün.

**6.** Müəyyən olunmuş məktəblərlə metodiki işin təşkili və koordinasiyası Azərbaycan Respublikasının Təhsil İnstitutuna (R.Əzizov) tapşırılsın.

**7.** İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) bu əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**8.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*15 iyul 2022-ci il*

## Ümumi təhsil müəssisələrinin 2022-2023-cü tədris ili üçün tədris planlarının təsdiqi haqqında

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Ümumi təhsil müəssisələrində təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının tədris Azərbaycan dilində və digər dillərdə aparılan, azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin 2022-2023-cü tədris ili üçün aşağıdakı tədris planları və “Tədris planlarına dair qeydlər” təsdiq edilsin:

1.1. Ümumi təhsil müəssisələrinin I-XI sinifləri üçün tədris planları (1, 2 nömrəli əlavələr);

1.2. Azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin müvafiq sinifləri üçün tədris planları (3, 4, 5, 6 nömrəli əlavələr);

1.3. “Tədris planlarına dair qeydlər” (7 nömrəli əlavə).

**2.** Yerli təhsili idarəetmə orqanlarının rəhbərlərinə tapşırılsın ki, ümumi təhsil müəssisələrinin fəaliyyətinin müvafiq tədris planları əsasında təşkilinə nəzarət etsinlər.

**3.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin əlavələrlə birlikdə yerlərə və müvafiq struktur bölmələrə çatdırılmasını təmin etsin.

**4.** İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin əlavələrlə birlikdə “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*28 iyul 2022-ci il*

## Doktorantların və gənc tədqiqatçıların XXV Respublika elmi konfransının keçirilməsi barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Doktorantların və gənc tədqiqatçıların apardıqları elmi tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaq məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Doktorantların və gənc tədqiqatçıların XXV Respublika Elmi Konfransı 2022-ci il 23-24 noyabr tarixlərində Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən keçirilsin, konfrans “Şuşa İli”nə həsr edilsin.

**2.** Konfransın Təşkilat komitəsinin tərkibi, “Doktorantların və gənc tədqiqatçıların XXV Respublika Elmi Konfransının Əsasnaməsi” təsdiq edilsin (əlavə 1 və 2).

**3.** Ali təhsil müəssisələrinin rektorları doktorantların və gənc tədqiqatçıların məruzə tezislərinin 2022-ci il 1 avqust tarixinədək Təhsil İnstitutunun Təhsildə innovasiyalar şöbəsinə təqdim edilməsini təmin etsinlər.

**4.** Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru (Rüfət Əzizov) konfransın yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaratsın, konfransın proqram və materiallarının nəşr edilməsini və konfransın nəticələri barədə Təhsil Nazirliyinə hesabatın təqdim olunmasını təmin etsin.

**5.** Elm, ali və orta ixtisas təhsil şöbəsi (Yaqub Piriyev) konfransın keçirilməsi ilə əlaqədar lazımi təşkilati məsələləri həll etsin.

**6.** Maliyyə şöbəsi (Rauf Orucov) Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən konfransın keçirilməsi ilə bağlı tələb olunan xərclər üzrə təqdim olunacaq maliyyə sifarişi əsasında Təhsil Nazirliyinin büdcəsində aidiyyəti tədbir üzrə nəzərdə tutulan vəsaitdən müvafiq məbləğin həmin institutun hesabına köçürülməsini təmin etsin.

**7.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) əmrin çoxaldılıb ali təhsil müəssisələrinə göndərilməsini təmin etsin.

**8.** İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini və “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.

**8.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*6 iyul 2022-ci il*

# Elm və təhsil naziri Şamaxıda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 24 avqust 2022-ci il tarixində Şamaxı şəhərində Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarında qeydiyyatda olan sakinləri qəbul edəcək. Qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeyd olunan şəhər və rayonların sakinləri 1-15 avqust 2022-ci il (saat 18:00-dək) tarixlərində Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, elektron *(https://edu.gov.az/az/contact_us)* və rəsmi “Whatsapp” xidmətinə (0512067848) müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbulda yalnız yuxarıda göstərilən tarixlərdə müraciət etmiş şəxslər iştirak edəcək. Müvafiq qaydada müraciət etmiş və adları qəbula yazılanlar siyahısında olan şəxslər qəbulun keçirildiyi otağa şəxsiyyət vəsiqəsi əsasında buraxılacaqlar.

# Yüksək nəticə göstərən məzun



**Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika İnternat Məktəbinin yetirməsi Nihat Əlizadənin uğur hekayəsi**

I ixtisas qrupu üzrə yüksək nəticə göstərən şagirdlərdən biri də Nihat Əlizadədir. O, fizika fənnindən 27 test tapşırığını doğru cavablandırıb və ümumilikdə 596 bal toplayaraq böyük uğura imza atıb. Nihat I qrup görmə məhdudiyyətlidir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika İnternat Məktəbində təhsil alıb. Nihat öz hədəfinə doğru yol alarkən göstərdiyi səyi, əzmi haqqında “Azərbaycan müəllimi”nə danışdı:

İlk olaraq onu qeyd edim ki, 9-cu sinifdə oxuyanda qəti qərarımı verdim ki, I qrupa hazırlaşacağam. Bunu riyaziyyat və fizika fənninə olan sevgim ilə əlaqələndirirəm. Çox çalışırdım, hər şeyi vaxtında edirdim, qeydlər aparırdım, nəzəri biliklərimi artırırdım. Qəbul imtahanına 2 il qalmış hazırlığa getməyə başladım. Bununla da öyrəndiklərimi daha da təkmilləşdirdim. Mənə ən çox motivasiya verən biliklərim, özüməinamım idi. Buna görə də, yüksək nəticə əldə etdim. Seçim olaraq BDU-nun “Riyaziyyat” ixtisasını seçməyi düşünürəm. Gələcəklə bağlı planlarım çoxdur. Əsas məqsədim beynəlxalq arenada tanınmaqdır. Əldə etdiyim biliklərimi gələcəyə ötürmək, riyaziyyat elmində yeniliklər yaratmaq, ən əsası isə beynəlxalq səviyyədə riyaziyyatçı olmaqdır.

Eyni zamanda, o bildirir ki, hər bir uğurun başında məqsəd dayanır. Məqsədim güclü olduğu üçün planlarımı həyata keçirəcəyimə böyük inamım var. Öz yaşıdlarına da ilk olaraq bunu arzulayır.

5 nömrəli Respublika İnternat Məktəbinin direktoru İradə Vəzirova qeyd edir ki, Nihat həmişə nizam-intizamı, məqsədyönlülüyü ilə fərqlənib. İstəyinə doğru addımlayan, çalışqan şagird olub. İstər dərs saatlarında, istərsə də dərsdən sonra müəllimləri ilə ünsiyyətdə olub, ona qaranlıq qalan mövzuları, həlli gərəkən məsələləri müzakirə edib, həll yolunu axtarıb. O, həmçinin bildirib ki, imtahandan sonra belə riyaziyyatdan cavablandıra bilmədiyi sualları məktəbə gələrək Həmidə müəlliminə göstərib, düzgün həlli yollarını öyrənib. Amma bunu hər bir şagird eləmir. Nihat elmdə dəqiqliyi sevəndir. Mənim ondan gözləntilərim yüksəkdir. Ən əsası isə inanıram ki, riyaziyyat elminə yeniliklər gətirəcək, dünyada tanınacaqdır. Nihatın uğuru bunu bir daha sübut edir ki, elm sərhəd tanımır. Heç bir fiziki məhdudiyyət təhsil almağa, maariflənməyə əngəl deyil.

Nihat da daxil olmaqla, müvəffəqiyyət əldə edən hər bir məzunu təbrik edir, gələcək təhsillərində uğurlar arzulayırıq.

**Tünzalə QULİYEVA**

# Olimpiya Mədəniyyəti və Təhsili Proqramı çərçivəsində Azərbaycan guşəsi açılıb







Slovakiyanın Banska Bıstritsa şəhərində keçirilən Avropa Yeniyetmələrinin XVI Yay Olimpiya Festivalı günlərində Olimpiya Mədəniyyəti və Təhsili Proqramı (OSEP) çərçivəsində Azərbaycan guşəsinin rəsmi açılışı olub.

Festival tarixində ikinci dəfə olaraq təşkil olunan və 28 ölkənin iştirak etdiyi OCEP pavilyonunda Azərbaycanı Slovakiyanın 2 qardaşlaşmış məktəbi və Bakının Y. Kovalyov adına 229 nömrəli tam orta məktəbinin şagirdləri təmsil edib.

Açılış mərasimində Milli Olimpiya Komitəsinin Baş katibi Azər Əliyev, Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Liney Rut Halldorssdottır, Slovakiya Olimpiya Komitəsinin prezidenti Siekel Anton, Polşa Olimpiya Komitəsinin prezidenti Andrzej Krasnicki, Elm və Təhsil Nazirliyinin sektor müdiri Hilal Salmanov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, Azərbaycanın Avstriya Respublikasındakı səfirliyinin nümayəndələri, idmançılar və başqa rəsmilər iştirak edib.

Mərasimdə OCEP proqramının Azərbaycanın təşəbbüsü ilə Bakıda təşkil edilmiş XV Avropa Gənclər Yay Olimpiya Festivalından start götürərək Slovakiyada davam etdirilməsinin Olimpiya hərəkatının gənclər arasında təşviq olunmasında əhəmiyyətli rolu xüsusi vurğulanıb. Qeyd olunub ki, bu təşəbbüs gələcəkdə təşkil olunacaq Festivallarda da tətbiq ediləcək.

Azərbaycanın Slovakiya Olimpiya Komitəsinə və Avropa Olimpiya Komitəsinə OCEP-in xalçaları təqdim olunduqdan sonra qardaşlaşmış Slovakiya və Azərbaycan məktəblərinin şagirdləri qonaqlar qarşısında milli rəqsləri ilə çıxış edib.

Daha sonra qonaqlar pavilyonda quraşdırılmış Azərbaycanın və digər ölkələrin guşələrini ziyarət edərək məktəblilərin təmsil etdikləri ölkələrin mədəniyyəti, tarixi, idmanı, mətbəxi və sair sahələr üzrə təqdimat və viktorinalarını seyr ediblər.

İyulun 31-ə qədər Banska Bıstritsada olan OCEP məktəbliləri “EYOF 2022” “Sports” Parkına, ərazidəki idman obyektlərinə səfər edərək idman yarışlarına baxmaq imkanı da qazanıblar. Avropa Gənclər Olimpiya Səfirlərinin təhsil proqramına qatılan məktəblilər Azərbaycanı təmsil etməklə yanaşı, digər ölkələrin sərgi stendlərində də iştirak ediblər.

Qeyd edək ki, Olimpiya Mədəniyyəti və Təhsili Proqramına (OCEP) Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində start verilib. Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondu və Avropa Olimpiya Komitəsinin dəstəyi ilə həyata keçirilən layihə Elm və Təhsil Nazirliyinin tərəfdaşlığı ilə Milli Olimpiya Komitəsi tərəfindən həyata keçirilir. 2021-2022-ci illər ərzində OCEP-in coğrafiyası genişlənərək təmsil olunan ölkələrin sayı 56-ya çatdırılıb. Bu müddət ərzində Azərbaycandan olan qardaşlaşmış məktəblərin təşkil etdiyi tədbir və fəaliyyətlər 200 minə yaxın məktəblini əhatə edib.

# Elm və təhsilin inkişafında yeni mərhələ

## Elm və təhsilin inteqrasiyası zamanın tələbidir



**Asəf ZAMANOV,**
*ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor*

Müasir ali təhsil sisteminin günün tələbləri səviyyəsində qurulması və islahatı məqsədilə dünyanın aparıcı ölkələrində müxtəlif trayektoriyalar mövcuddur. "XXI əsrin problemlərinin həlli üçün istənilən cəmiyyətdə yenilənmiş ali təhsil zəruridir. Elə ali təhsil ki, onsuz heç bir millətin və dövlətin nə mədəni, nə sosial, nə də texniki inkişafı mümkündür". 1998-ci ildə Parisdə keçirilən Ali təhsil üzrə ümumdünya konfransında səslənmiş bu fikir hazırda da öz aktuallığını saxlayır. Ali məktəbdə proseslərin hərəkətverici qüvvəsi onun yeniləşmə zəruriliyi, maddi-texniki bazası və dünya təhsil sisteminə daxilolma cəhdidir. Müasir ali təhsilin uğurları daim dəyişən şəraitə çevik uyğunlaşma qabiliyyəti ilə müəyyənləşdirilir. Dövlətə və cəmiyyətə əmək bazarının tələblərinə uyğun olaraq öz fəaliyyətinin məzmununu çevik dəyişməyə qabiliyyətli mütəxəssislər lazımdır. Belə kadrların hazırlanması isə yüksək səviyyəli ali təhsil müəssisələrində mümkündür. Yeni şəraitdə köhnə təcrübə yalnız xeyirsiz yox, hətta zərərli ola bilər.

Təhsilin və intellektual resursların ölkə həyatında müstəsna rolu, insan potensialının formalaşması, onun gələcəyi dövlətin rəqabətqabiliyyətliyinin başlıca şərtlərindəndir. Belə ki, ölkələr təkcə xidmət sahələri və istehsal etdiyi məhsullarla deyil, həmçinin ictimai dəyərləri və təhsil sistemləri (xüsusilə ali təhsil sistemləri) ilə də rəqabət aparırlar. Müasir dünyada rəqabətə davam gətirmək üçün dövlətlər ərazisinə, təbii sərvətlərinə yox, intellektual potensiallarına güvənirlər. Dünya miqyasındakı dəyişikliklərin sürətlə getdiyi hazırkı dövrdə hər bir ölkənin, cəmiyyətin yüksək təhsilli, innovasion təfəkkürlü mütəxəssislərə çox böyük ehtiyacı var. Müasir dünya informasiya resurslarının sürətlə artması, biliklər sisteminin yüksəlməsi, hadisələrin tez-tez əvəzlənməsi ilə xarakterizə olunur.

Ölkəmizdə müstəqillik illərində ali təhsilin fasiləsiz təkmilləşmə və müasirləşmə vəziyyətinə çatması üçün xeyli işlər görülmüşdür.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ildə Cenevrədə "Ümumdünya İnformasiya Cəmiyyəti Sammiti"ndə "Biz qara qızıl kapitalını insan potensialına çevirəcəyik" bəyanatı ilə ölkəmizdə intellektual potensialın inkişafının yeni mərhələsi başlandı və hazırda uğurla inkişaf edir. Elmə söykənən iqtisadiyyatın formalaşmasında da intellektual potensialın mühüm rolu danılmaz həqiqətdir. Cəmiyyətin davamlı inkişafında, intellektual potensialın formalaşmasında, maddi sərvətlərin intellektual kapitala çevrilməsində təhsil, xüsusilə ali təhsil müstəsna əhəmiyyət kəsb edir.

ABŞ-ın 32-ci prezidenti Franklin Ruzveltin"Amerika Birləşmiş Ştatlarının universitetləri ona görə qüdrətli deyillər ki, onlar Amerika Birləşmiş Ştatları kimi güclü dövlətin universitetləridirlər. Amerika Birləşmiş Ştatları ona görə güclü dövlətdir ki, onun qüdrətli universitetləri var" fikrinin şərhinə hesab edirəm ki, ehtiyac yoxdur.

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanı inanırıq ki, ölkəmizdə ali məktəblərin brend universitetlərə çevrilməsinə, "Tədqiqat universiteti" statusu qazanmasına, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmlənməsinə, intellektual potensialın yüksəlməsinə və nəhayət, müstəqil Azərbaycanın daha güclü və qüdrətli dövlətə çevrilməsinə öz müsbət təsirini göstərəcəkdir.

## Elm və təhsilin səmərəli fəaliyyəti



**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

Dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı vaxtında qəbul edilmiş qərardır. Ona günümüzün mühüm hadisəsi kimi yanaşmalıyıq. Çünki, burada cəmiyyətimizin əsas atributlarından biri kimi həm elmin, həm də təhsilin inteqrasiya imkanları nəzərə alınmaqla onların inkişafı və idarə olunması məsələləri əhatə edilir.

Fərmandan irəli gələn elm və təhsilin inteqrasiyası dünyada qəbul edilmiş Davamlı İnkişaf Məqsədlərinə (DİM) doğru addımladığımız bir zamanda XXI əsrin təhsil düşüncələrini reallığa çevirmək, kreativ insanları formalaşdırmaq baxımından da zəruridir.

Fikrimizcə, elm və təhsil sahələrinin belə məzmunda inteqrasiyası cəmiyyətimizdə aşağıdakı məsələlərin həllinə təkan verəcəkdir:

**1.** Vahid mərkəzdən idarə olunma elm və təhsilin səmərəli fəaliyyətinə imkan yaradacaqdır.

**2.** İnteqrativ elm və təhsil sahəsinin yaradılması universitetlərin tədqiqat bazasına çevrilməsini sürətləndirəcək, onların yeni elmi infrastrukturunun yaradılmasına təsir göstərəcəkdir.

**3.** Aparılmış fundamental və empirik tədqiqatların nəticələrinin universitetlərdə tətbiqi imkanları genişlənəcək, insan kapitalının formalaşdırılması baxımından əhəmiyyəti artacaqdır.

**4.** Təhsil sahələrinin tələbinə uyğun olaraq tədqiqatların tematik cəhətdən çeşidliliyi artacaq və onların mobilliyinə imkan yaranacaqdır.

**5.** Tədqiqatların sifariş prinsipinə əsasən aparılması imkanları genişlənəcək və bu, onların rentabelliyinin yüksəlməsinə təsir edəcəkdir.

**6.** Elm və Ali təhsil, eləcə də Məktəbəqədər və Ümumi Təhsil üzrə agentliklərin yaradılması həmin sahələrin keyfiyyət təminatını və effektiv idarə olunması imkanlarını genişləndirəcəkdir.

## Elmi tədqiqatların inkişafı naminə



**İlham AXUNDOV,**
*Kanadanın Vaterloo Universitetinin professoru*

Ölkə başçısı tərəfindən elmi tədqiqatların inkisafi məqsədilə elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi barədə belə bir Fərmanın imzalanması çox sevindirici haldır.

Düşünürəm ki, burada əsas məqsəd tədrisin və elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi, inteqrasiyası, eləcə də yeni maliyyələşdirmənin keyfiyyətlə sıx əlaqələndirilməsi olmalıdır. Tədris və tədqiqatlar çox zaman eyni resurslardan, imkanlardan və kadrlardan istifadə etdikləri üçün bir-birini tamamlayır və onların inteqrasiyası vacibdir. Çox vaxt bizim burada tədris etdiyimiz kursların məzmunu şəxsi tədqiqat maraqlarımız haqqında faktiki və konseptual biliklərin izahına əsaslanır.

Təhsil Nazirliyinin fəaliyyət istiqamətləri arasında "Elmi tədqiqat və innovasiyaların inkişafının təmin olunması" hər zaman öz əksini tapmışdı, amma təəssüflər olsun ki, bir neçə universitet xaric, Azərbaycanda elmi tədqiqatlar əsas prioritet istiqamət kimi tələb olunmurdu.

Hazırda elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Elm və Təhsil Nazirliyi yanında iki Agentlik yaradılır:

- Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi
- Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi

Fikrimcə, birinci Agentliyin fəaliyyəti əsasən TN-nin indiyə qədər apardığı işin davam etdirilməsi olacaq. İkinci Agentliyin əsasnamə layihəsinin nə şəkildə hazırlanması isə çox vacibdir. Məncə, burada müzakirələrə ehtiyac var. Fürsətdən istifadə edib bəzi mülahizələrimi söyləmək istərdim.

**1.** Düşünürəm ki, indi universitetlər üç növə bölünə bilər: yaradılması planlaşdırılan tədqiqat universitetləri/institutları, tədqiqat və tədris universitetləri və az sayda tədris universitetləri. Hər bir universitet öz güclü tərəflərinin, məqsədlərinin və hədəflərinin təhlili əsasında strateji elmi-tədqiqat planlarını hazırlamalıdır. Elm və Təhsil Nazirliyinə birləşdirilən tədqiqat institutlarlnın mövcud potensialı universitetlərin nəzdində tədqiqat mərkəzləri və institutlarının yaradılmasına sərf oluna bilər. Məsələn, çalışdığlm Vaterloo Universitetində hazırda 30-dan çox tədqiqat mərkəzi və institutları uğurla fəaliyyət göstərir.

**2.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi beynəlxalq miqyasda rəqabət aparmaq üçün elmin hansı sahələrində üstünlüyə malik olduğunu müəyyən etməlidir və dünyaya real təsir göstərmək qabiliyyətində olan sahələrə investisiya qoymalıdır. Bu, təkcə Nazirliyin məsuliyyəti deyil, elm adamları öz fəaliyyətlərini yaxşılaşdırmalı və töhfələr verməlidirlər. Bu, böyük məbləğdə vəsait xərcləmədən hər iki tərəfə böyük fayda gətirə bilən ikitərəfli bir prospekt ola bilər.

**3.** Bütün elm adamları, universitetlər, siyasətçilər gedilən istiqamətə, həyata keçirmək istədiyimiz məqsədlərə dair aydın təsəvvürə malik olmalıdır. Kimin idarə etməsindən asılı olmayaraq, gələcəyə geniş baxış vacibdir.

**4.** Universitetlərin beynəlmiləlləşdirilməsi, fənlərarası tədqiqatlar və tədqiqatçıların mobilliyini təkmilləşdirmək vacibdir. Görkəmli xarici tədqiqatçıların həvəsləndirilməsi üçün yeni təqaüd sisteminin yaradılması, Azərbaycan alimlərinin vətənlərinə qaytarılması layihəsinə də Nazirlik tərəfindən baxılması, elmi və tədqiqat karyeralarını davam etdirmək məqsədi ilə xaricdə yaşayan azərbaycanlı alimlərin reinteqrasiyasının maliyyələşdirilməsini məqsədəuyğun sayırıq.

**5.** Elm sahəsində inkisaf etmiş ölkələrlə Elm və Təhsil Nazirliyi arasında elmi, texnoloji və sənaye tədqiqatları sahəsində əməkdaşlığı dəstəkləmək və birgə "Tədqiqat və İnnovasiya Fondları" yaratmaq. Sənaye və texnologiya innovasiyaları sahəsində əməkdaşlıq ölkələr arasında iqtisadi və biznes əməkdaşlığını da təşviq edəcək.

**6.** Elmin inkisafı bu gün bir çox yeni problemlərlə üzləşir. Bunlara demoqrafik tənəzzül, onlayn öyrənməyə ehtiyac, yeni sahələr və texnologiyalar, tədqiqatlar üçün vəsait, xarici tələbələr və araşdırmaçılar üçün universitetlərin rəqabəti və s. daxildir. Dünya Universitet Reytinqləri üçün tələb olunan elmi məqalələrin sayı Nazirliyin təşəbbüsü ilə tədqiqatçıların universitetlərə mənsubiyyət (affiliation) prosesi vasitəsilə artırıla bilər.

Beləliklə, biz indi daha çox iş görməli, yeni layihələr üçün Elm və Təhsil Nazirliyində mövcud olan resursları genişləndirməyə çalışmalıyıq.

## Fərman universitetlərdə elmi məktəblərin formalaşmasına təkan verəcək



**Hikmət ƏLİZADƏ,**
*Bakı Dövlət Universitetinn professoru*

Ölkə Prezidenti tərəfindən imzalanmış "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə təhsil islahatlarının yeni məzmun xətti olub, elm və təhsilimizin inkişafı üçün yeni üfiqlər açır.

Düşünürəm ki, Fərman universitetlərdə elmi məktəblərin formalaşmasına təkan verəcək. Sənəddə adları qeyd olunan elmi müəssisələrin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi ölkəmizdə fəaliyyət göstərən universitetlərin elmi potensialının artmasına imkan yaradacaqdır. Məlum olduğu kimi, elm və təhsil qarşılıqlı əlaqədə olub, bir-birinin inkişafını şərtləndirir.

Bütün dövrlərdə ali məktəblərdə fəaliyyət göstərən müəllimlər yüksəkixtisaslı kadr hazırlığı ilə yanaşı,elmi fəaliyyətlə də məşğul olublar. Ali məktəb müəllimlərinə verilən elmi dərəcələr bilavasitə onların elmi fəaliyyətlərində əldə etdikləri nəticələrə əsasən müəyyən edilir. Elmi müəssisələrin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə keçməsi universitet müəllimlərinin həmin müəssisələrin elmi bazasından istifadə etmək imkanını artırır. Bu ali təhsil müəssisələrində təhsilin səviyyəsinin artmasına da şərait yaradacaqdır. Belə ki, bu cür qarşılıqlı əməkdaşlıq təhsilin müxtəlif pillələrində elmi müəssisələrin potensialından istifadə etməklə hazırlanan kadrların həm elmi fəaliyyət bacarıqlarının formalaşmasına, həm də əldə etdikləri biliklərin elmi qanunauyğunluqlarını daha dərindən mənimsəməsinə imkan yaradacaq.

Bu, həmçinin təhsilin magistratura və doktorantura pillələrində kadr hazırlığı keyfiyyətinin artırılmasına da əhəmiyyətli təsir göstərəcəkdir. Belə ki, magistratura və doktorantura pillələrində təhsil alan kadrlar tədqiqat apararkən müxtəlif çətinliklərlə üzləşirdilər. Elmi müəssisələrin laboratoriyalarında tədqiqat aparmaq imkanı onların tədqiqatlarının səviyyəsinin artmasına imkan verəcək. Bununla yanaşı, magistr və doktorantların elmi müəssisələrdə mövcud olan elmi mühitdə formalaşması gənclərimizin gələcəkdə daha yüksək səviyyəli alim kimi formalaşmasına şərait yarada bilər.

## İnkişafa hədəflənmiş mühüm siyasi qərar



**İlqar ORUCOV,**
*Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru*

Dövlət başçısı cənab İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı elm və təhsilin inteqrasiyasının təmin olunmasına hədəflənmiş mühüm siyasi qərar olaraq elm və təhsil ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir.

Fərman ölkəmizdə elmin və təhsilin vahid mərkəzdən idarə edilməsi ilə bərabər, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətində yeni mərhələnin başlanmasına, səmərəliliyin artmasına gətirib çıxaracaqdır. Bu mühüm sənəd son illərdə ölkəmizdə həyata keçirilən islahatların qeyd olunan sahələrdə daha sürətli və effektli şəkildə aparılmasını, bir-biri ilə sıx surətdə bağlı olan iki vacib sahənin paralel şəkildə, dünyada elm, təhsil və texnologiyalar sahəsində qabaqcıl təcrübədən yararlanaraq inkişafını şərtləndirəcək. Fərmanı ölkə Prezidentinin dövlətimizin həyatında elm və təhsilin rolunun, universitetlərimizin rəqabət qabiliyyətliliyinin artırılması, yeni nəsil elmi kadrların hazırlığı, elmi müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində reallaşdırdığı məqsədyönlü və ardıcıl siyasətin davamı olaraq qiymətləndirirəm. Əminəm ki, xalqımızın intellektual potensialı dünya səviyyəli nəhəng alimləri yetişdirmək qüdrətinə malikdir. Sadəcə münbit şəraiti, ədalətli rəqabət mühitini yaratmaqla biz dediyimiz hədəflərə çata biləcəyik. Dövlət rəhbərinin imzaladığı Fərman məhz bu məqsədə xidmət edir. Xüsusilə fundamental tədqiqatlarla məşğul olan elmi-tədqiqat müəssisələrinin yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi, nazirlikdə elm və ali təhsili koordinasiya edəcək agentliyin yaradılması ölkəmizdə elmi innovasiyaların birbaşa iqtisadiyyata ötürülməsi və biznesə çevrilməsinin çevik, zəruri mexanizmlərini də yaratmağa zəmin yaradacaq.

Düşünürəm Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmiş elmi müəssisələr üçün də yeni imkanlar yaranacaqdır. İnanıram ki, bu Fərman elm və təhsilimizin inkişafında ciddi dönüş yaradacaq. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Azərbaycan universitetlərinin dünya universitetləri arasında top 800-də yer alması hədəfinin də reallaşması istiqamətində yeni imkanlar yaranır. Elmi fəaliyyətin ali təhsil müəssisələrində yerinə yetirilməsi ilə biz dünya reytinqində təmsil olunmaq üçün müəyyən edilən tələbləri də qarşılamış oluruq. Bu gün qalib xalqın bayrağının bütün sahələrdə, eləcə də elm, təhsil sahəsində də ucalarda dalğalanması haqqı vardır.

## Elm və təhsilin inkişafı vəhdətdə



**Fərrux RÜSTƏMOV,**
*ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi*

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli Fərmanı elm və təhsilin inteqrasiyasına və vəhdətdə inkişafına hədəflənib.

Elm və təhsilin vəhdətinin yaradılması, vahid mərkəzdən idarəolunması çox vacibdir. Elmi tədqiqatların və təhsil tədqiqatlarının mərkəzləşdirilmiş qaydada aparılmasının böyük üstünlükləri vardır. Respublikamızda elmin inkişafı həm də təhsilin ehtiyaclarına uyğunlaşdırılmalıdır. Elm və təhsil vahid sosial institut kimi birgə inkişaf etdirilməli, biri digərinin inkişafına təkan verməlidir.

Dövlətin əsas prioritetlərindən biri bilik iqtisadiyyatın informatlaşdırılmasıdır ki, bu da təhsil, elm və innovasiya arasında effektiv qarşılıqlı əlaqənin yaradılmasını tələb edir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ali təhsil müəssisələrinin "təhsil-tədqiqat-innovasiya" formatında inkişafı təşviq olunur. Bunun üçün də universitetlərin güclü maddi-texniki bazası və infrastrukturu olmalıdır. Nazirliyin tabeliyinə verilən tədqiqat institutları ilə müvafiq universitetlərimizin inteqrasiyası nəticəsində tədqiqat universitetlərinin yaradılmasına nail ola bilərik.

Elm sahəsində dövlət siyasətinin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlərin Elm və Təhsil Nazirliyinə həvalə edilməsi elmin müasir tələblərə uyğun inkişaf strategiyasının və təşkilati strukturunun formalaşdırılmasını tələb edir. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin yaradılmısı bu məqsədin reallaşdırılmasına, elm və təhsilin idarəedilməsinin optimallaşdırılmasına xidmət edir.

Ümidvaram ki, ölkə Prezidenti tərəfindən imzalanmş Fərman Azərbaycanda elm və təhsilin inteqrasiyasına, tərəqqisinə, intellektual potensialın artırılmasına və insan kapitalının inkişafına güclü təkan verəcəkdir.

Səhifəni hazırladılar: Samirə KƏRİMOVA, Oruc MUSTAFAYEV

*Azərbaycan Respublikası təhsil nazirinin 28 iyul 2022-ci il tarixli, F-462 nömrəli əmri ilə təsdiq edilib*

# Ümumi təhsil müəssisələrinin TƏDRİS PLANLARI

**Ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2022-2023-cü tədris ili üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 1**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 8 | 9 | 9 | 9 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Xarici dil | 1 | 1 | 1 | 1 | 2 | 3 | 3 | 3 | 3 | 4 | 4 |
| 4 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 5 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 7 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 8 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 9 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 10 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 11 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 12 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Təbiət | | | | | 2 | | | | | | |
| 14 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | 1 | 1 | 1 | 1 | | |
| 15 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 19 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **21** | **22** | **24** | **24** | **25** | **29** | **31** | **32** | **33** | **33** | **33** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **22** | **23** | **25** | **25** | **25** | **30** | **32** | **34** | **35** | **35** | **35** |

**Ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2022-2023-cü tədris ili üçün tədris planı (tədris digər dillərdə)**

**Əlavə 2**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Tədris dili (________) | 8 | 9 | 9 | 9 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 3 | 3 | 2 | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 2 | 3 | 3 | 3 | 3 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | | | 1 | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Təbiət | | | | | 2 | | | | | | |
| 15 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | 1 | 1 | 1 | 1 | | |
| 16 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 20 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** | **27** | **31** | **33** | **34** | **35** | **35** | **35** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** | **27** | **32** | **34** | **36** | **37** | **37** | **37** |

**Ləzgi dili öyrədilən ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2022-2023-cü tədris ili üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 3**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 7 | 8 | 8 | 8 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Ləzgi dili | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Təbiət | | | | | 2 | | | | | | |
| 15 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | 1 | 1 | 1 | 1 | | |
| 16 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 20 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **21** | **22** | **24** | **24** | **25** | **29** | **31** | **32** | **33** | **33** | **33** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **22** | **23** | **25** | **25** | **25** | **30** | **32** | **34** | **35** | **35** | **35** |

**Ləzgi dili öyrədilən ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2022-2023-cı tədris ili üçün tədris planı (tədris digər dillərdə)**

**Əlavə 4**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Tədris dili (________) | 7 | 8 | 8 | 8 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 3 | 3 | 2 | 2 | 2 | 2 | 2 |
| 4 | Ləzgi dili | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 5 | Xarici dil | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 4 | 4 |
| 6 | İkinci xarici dil | | | | | | | 1 | 1 | 1 | 2 | 2 |
| 7 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 8 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 9 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 10 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 11 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 12 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 13 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 15 | Təbiət | | | | | 2 | | | | | | |
| 16 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | 1 | 1 | 1 | 1 | | |
| 17 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 20 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 21 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** | **27** | **31** | **33** | **34** | **35** | **35** | **35** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** | **27** | **32** | **34** | **36** | **37** | **37** | **37** |

**Azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin I-IV siniflərinin 2022-2023-cü tədris ili üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 5**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | Azərbaycan dili | 7 | 8 | 8 | 8 |
| 2 | "______" dili | 1 | 1 | 1 | 1 |
| 3 | Xarici dil | 1 | 1 | 1 | 1 |
| 4 | Riyaziyyat | 5 | 5 | 5 | 5 |
| 5 | İnformatika | 1 | 1 | 1 | 1 |
| 6 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 |
| 7 | Texnologiya | 1 | 1 | 2 | 2 |
| 8 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 |
| 9 | Musiqi | 1 | 1 | 1 | 1 |
| 10 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 |
| **Cəmi:** | | **21** | **22** | **24** | **24** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 |
| **Yekun:** | | **22** | **23** | **25** | **25** |

**Azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin I-IV siniflərinin 2022-2023-cü tədris ili üçün tədris planı (tədris digər dillərdə)**

**Əlavə 6**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | Tədris dili (__________) | 7 | 8 | 8 | 8 |
| 2 | "______" dili | 1 | 1 | 1 | 1 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 |
| 5 | Riyaziyyat | 5 | 5 | 5 | 5 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 |
| 7 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 |
| 8 | Texnologiya | 1 | 1 | 2 | 2 |
| 9 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 |
| 10 | Musiqi | 1 | 1 | 1 | 1 |
| 11 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 |
| **Cəmi:** | | **23** | **24** | **26** | **26** |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 |
| **Yekun:** | | **24** | **25** | **27** | **27** |

**Əlavə 7**

## Tədris planlarına dair qeydlər

**1.** Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində tədrisi nəzərdə tutulan xarici dil (dillər) ingilis, alman, fransız, rus, ərəb, fars dilləri arasından seçilir.

**2.** Tədris dilindən asılı olmayaraq, bütün ümumi təhsil müəssisələrində xarici dilin tədrisi I (birinci) sinifdən başlanır. Tədrisi I (birinci) sinifdən başlanan xarici dil şagirdin ümumi təhsil müəssisəsində öyrəndiyi əsas xarici dil hesab edilir.

**3.** Xarici dilin (dillərin) tədrisi üçün müəssisədə müvafiq pedaqoji kadr potensialının olması zəruri şərt hesab edilir.

**4.** Bu “Qeydlər”in 3-cü bəndində nəzərdə tutulan şərt ödənilməklə bir neçə xarici dil tədris olunan ümumi təhsil müəssisəsində övladı üçün müvafiq xarici dil onun valideyni (digər qanuni nümayəndəsi) tərəfindən seçilir. Valideynlərin (digər qanuni nümayəndələrin) seçimi ilə bağlı zərurət yaranarsa, eyni sinifdə iki xarici dil qrupu təşkil oluna bilər. Bu halda aşağıdakılar nəzərə alınmalıdır:

4.1. Həmin sinfin bu “Qeydlər”in 22-ci bəndində nəzərdə tutulmuş qayda üzrə 2 (iki) qrupa bölünməsi.

4.2. Bu qrupların dil seçiminə görə bərabər şagird sayı, yaxud qismən az say fərqi ilə komplektləşdirilməsi.

4.3.Ümumi təhsil müəssisəsində həmin xarici dillərin hər biri üzrə ən azı iki nəfər müəllimin olması.

**5.** İkinci xarici dil tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində V-XI (beşinci-onbirinci), tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrində VII-XI (yeddinci-onbirinci) siniflərdə tədris olunur.

**6.** Müvafiq pedaqoji kadr potensialı olduğu halda, ikinci xarici dilin tədrisindən və öyrənilməsindən imtina olunması yolverilməzdir.

**7.** İkinci xarici dilin tədrisini təmin etmək məqsədilə əməkhaqqı mövcud qaydada ödənilməklə digər təhsil müəssisələrindən müəllim dəvət oluna bilər.

**8.** I və V (birinci və beşinci) siniflərdən başlayaraq tədris edilən xarici dillərin növbəti siniflərdə dəyişdirilməsinə yol verilmir.

**9.** Əsas xarici dil tədris olunan, lakin ikinci xarici dil tədris edilməyən ümumi təhsil müəssisələrində ikinci xaricə dilə ayrılan saat (saatlar) əsas xarici dilin öyrənilməsinə verilir.

**10.** Xarici dil (dillər) üzrə müvafiq pedaqoji kadr potensialı olmadığı halda, əsas və ikinci xarici dillərə ayrılan saatlar aşağıdakı fənlərin tədrisinə verilir:

10.1. İbtidai siniflərdə tədris dilinin;

10.2. Tədris Azərbaycan dilində aparılan V (beşinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, “Riyaziyyat” və “İnformatika” fənlərinin, tədris digər dillərdə aparılan V (beşinci) siniflərdə tədris dilinin və “Riyaziyyat” fənninin;

10.3. Tədris Azərbaycan dilində aparılan VI (altıncı) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, “Riyaziyyat”, “İnformatika” və “Azərbaycan tarixi” fənlərinin, tədris digər dillərdə aparılan VI (altıncı) siniflərdə tədris dilinin, “Riyaziyyat” və “İnformatika” fənlərinin;

10.4. VII-IX (yeddinci-doqquzuncu) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, “Riyaziyyat”, “İnformatika” və “Azərbaycan tarixi” fənlərinin;

10.5. X-XI (onuncu-onbirinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, “Riyaziyyat”, “Kimya”, “Fizika”, “Coğrafiya” və “Azərbaycan tarixi” fənlərinin.

**11.** Qeyd olunan fənlər üzrə ümumi təhsil müəssisəsində ixtisaslı müəllim olmadıqda, nəzərdə tutulan saat (saatlar) pedaqoji şuranın qərarına əsasən digər fənnin (fənlərin) tədrisinə verilir.

**12.** Dərsdənkənar məşğələ qrupları və dərnəklər şagirdlərin sayı 8 (səkkiz) nəfərdən az olmamaqla komplektləşdirilir.

**13.** Hər hansı bir sinifdə şagirdlərinin sayı dərsdənkənar məşğələ qrupu təşkil etmək üçün müəyyən edilmiş normadan az olduqda həmin dərsdənkənar məşğələ qrupuna yaxın siniflərin (məsələn, VI-VII, VII-VIII və s.) şagirdlərinin cəlbinə icazə verilir.

**14.** Dərsdənkənar məşğələlərə ayrılan saatlar şagirdlərdə iqtisadi və maliyyə savadlılığı, məntiq, mənəviyyat, etika, insan hüquq və azadlıqları, həyat fəaliyyətinin təhlükəsizliyi və s. üzrə bilik və bacarıqların mənimsənilməsinə xidmət edən müvafiq kursların tədrisinə verilir.

**15.** Müəyyən edilmiş ümumi təhsil müəssisələrinin II-IV (ikinci-dördüncü) siniflərində dərsdənkənar məşğələlərə ayrılan1 (bir) saat dərs cədvəlinə daxil olunmaqla “Şahmat” kursunun tədrisinə verilir.

**16.** Bütün azsaylı xalqların kompakt yaşadıqları ərazilərdəki ümumi təhsil müəssisələrinin I-IV (birinci-dördüncü) siniflərində (“Şahmat” kursu keçilən ümumi təhsil müəssisələrinin II-IV (ikinci-dördüncü) sinifləri istisna olmaqla), habelə ləzgi dili tədris olunan ümumi təhsil müəssisələrinin VI-IX (altıncı-doqquzuncu) siniflərində valideynlər və təhsilalanlar arzu etdikləri halda, dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat dərs cədvəlinə daxil edilməklə onların ana dilinin tədrisinə verilə bilər.

**17.** Tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrinin (bu Qeydlərin 14 və 15-cı bəndlərindəki ümumi təhsil müəssisələri istisna olmaqla) I-IV (birinci-dördüncü) siniflərində dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat bütün sinfə tədris olunmaqla (sinif iki qrupa bölünməməklə) “Azərbaycan dili - dövlət dili kimi” fənninin tədrisinə verilir. Bu zaman şagirdlərin dövlət dilində - Azərbaycan dilində şifahi nitq bacarıqlarının formalaşmasına daha çox diqqət yetirilməlidir.

**18.** Müəyyən edilmiş ümumi təhsil müəssisələrinin VI (altıncı) siniflərində “Həyat bilgisi” fənninə ayrılan 1 (bir) saat və “Biologiya” fənninə ayrılan saatlardan 1 (bir) saat hesabına 2 (iki) saat “Təbiət” fənninin tədrisinə verilir. Bu fənnin fizika və ya biologiya müəllimləri tərəfindən tədris olunması tövsiyə edilir.

**19.** Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı, Zəngilan rayonlarının bütün ümumi təhsil müəssisələrinin, habelə Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumi təhsil müəssisələrinin VI (altıncı) siniflərində dərsdənkənar məşğələlərə ayrılmış vaxt hesabına həftədə 1 (bir) saat olmaqla ikinci yarımildə “Mina təhlükəsinə dair maarifləndirmə” adlı kurs tədris olunur.

**20.** Müəyyən edilmiş ümumi təhsil müəssisələrinin VIII (səkkizinci) siniflərində dərsdənkənar məşğələlərə ayrılan saatlardan 1 (bir) saatı dərs cədvəlinə daxil edilməklə “Ortaq türk tarixi” kursunun tədrisinə verilir.

**21.** Bütün ümumi təhsil müəssisələrinin IX (doqquzuncu) siniflərində dərsdənkənar məşğələlərə ayrılan saatlardan1 (bir) saatı dərs cədvəlinə daxil edilməklə “Zəfər tarixi” kursunun tədrisinə verilir. Tədris dilindən asılı olmayaraq, bütün siniflərdə bu kurs dövlət dilində - Azərbaycan dilində tədris olunur.

**22.** Şagirdlərinin sayı 20 (iyirmi) və daha çox olan siniflər müvafiq maddi-tədris baza və ixtisas müəllimləri olduğu halda, aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:

22.1. Tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrinin I-XI (birinci-onbirinci) siniflərində “Azərbaycan dili - dövlət dili kimi”.

22.2. Ümumi təhsil müəssisələrinin tədris dilindən asılı olmayaraq bütün I-XI (birinci-onbirinci) siniflərində xarici dil, tədris Azərbaycan dilində aparılan V-XI (beşinci-onbirinci), tədris digər dillərdə aparılan VII-XI (yeddinci-onbirinci) siniflərində ikinci xarici dil.

22.3. Ümumi təhsil müəssisələrinin V-XI (beşinci-onbirinci) siniflərində “Fiziki tərbiyə”, V-IX (beşinci-doqquzuncu) siniflərində “Texnologiya”.

22.4. Ümumi təhsil müəssisələrinin X-XI (onuncu-onbirinci) siniflərində “İnformatika” fənni üzrə praktik məşğələlər. İnformatika kabineti olmayan ümumi təhsil müəssisələrində “İnformatika” fənni üzrə praktik məşğələ keçilmir.

**23.** Tədris ilinin birinci yarısında sinifdə şagirdlərin sayının azalması tədris ili ərzində tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində sinfin iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.

**24.** Tədris dilindən asılı olmayaraq, ümumi təhsil müəssisələrinin bütün X-XI (onuncu-onbirinci) siniflərində “Çağırışaqədərki hazırlıq” fənni dövlət dilində - Azərbaycan dilində tədris olunur.

**25.** Ümumi təhsil müəssisələrində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır. Dərs ili iki yarımilə bölünür:

25.1. birinci yarımil - 15 sentyabr - 26 yanvar;

25.2. ikinci yarımil - 1 fevral - 14 iyun.

**26.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilir:

26.1. 5 gün payız tətili (16-20 noyabr);

26.2. 5 gün qış tətili (27-31 yanvar).

26.3. İbtidai siniflər üçün 5 günlük əlavə yaz tətili (1-5 may).

# MDU yeni inkişaf mərhələsində: əsas hədəflər və nəticələr

## 2021/2022-ci tədris ili: əməkdaşlıqda başlıca meyillər və yeni tərəfdaşlar



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

**(Əvvəli qəzetin 15 iyul və 22 iyul tarixli saylarında)**

### Strateji tərəfdaşlıq

Yeni dövrün universitetinə çevrilməyi strateji hədəflərindən biri olaraq müəyyənləşdirən MDU-da mövcud potensialın gücləndirilməsi, idarəetmə, tədris və tədqiqat fəaliyyətlərinin müasir tələblərə uyğun təkmilləşdirilməsi məqsədilə beynəlxalq əlaqələr inkişaf etdirilmiş, müvafiq dövlət qurumları, paytaxtın qabaqcıl universitetləri və regionda yerləşən təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verilmişdir.

### Dövlət qurumları ilə əməkdaşlıq

Hesabat dövründə Azərbaycan Respublikasının Təhsil və İqtisadiyyat nazirlikləri, Mingəçevir Şəhər İcra Hakimiyyəti universitetin müxtəlif istiqamətlər üzrə fəaliyyətinə əhəmiyyətli dəstək göstərmişdir. "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda MDU tarixində ilk dəfə olaraq keçirilən beynəlxalq elmi konfrans məhz sözügedən dövlət qurumlarının mühüm dəstəyi sayəsində baş tutmuşdur.Bununla yanaşı, cari tədris ilində MDU Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Dövlət İmtahan Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzi, Mingəçevir şəhər Gənclər və İdman İdarəsi, Gənclərin İnkişafı və Karyera Mərkəzinin Mingəçevir nümayəndəliyi ilə əməkdaşlıq etmişdir.Bu qurumlar ilə əməkdaşlıq əsasən tələbələrin startap fəaliyyətlərinin və karyera inkişafının dəstəklənməsinə, onların innovasiya potensialının, praktiki bilik və bacarıqlarının artırılmasına, müvafiq fənlər üzrə tədris planlarının təkmilləşdirilməsinə, beynəlxalq və yerli kvalifikasiyalara uyğunlaşdırılmasına və müxtəlif mövzularda maarifləndirmə işlərinin həyata keçirilməsinə hədəflənmişdir.

### Ali təhsil və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq

2021/2022-ci tədris ilində paytaxtın qabaqcıl ali təhsil və elmi-tədqiqat müəssisələri ilə fəal və səmərəli əməkdaşlıq diqqət mərkəzində saxlanılmış və bu çərçivədə əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

### Bakı Dövlət Universiteti (BDU)

MDU-nun ölkəmizin qabaqcıl və qocaman universitetlərindən biri olan BDU ilə əməkdaşlığı çoxşaxəli və çoxsaylı birgə fəaliyyətlərin həyata keçirilməsi ilə yadda qalmışdır. Əməkdaşlıq çərçivəsində tələbə və magistrantların, akademik və inzibati heyət üzvlərinin potensialının inkişafına və təcrübə mübadiləsinə hədəflənən müxtəlif mövzularda ustad dərslər, konfranslar, dəyirmi masalar, elmi seminarlar və təlimlər təşkil edilmişdir. Cari tədris ilində hər iki universitetin tələbə təşkilatları arasında əlaqələr inkişaf etdirilmişdir. Bu istiqamətdə "Nizami Gəncəvi İli" və Qarabağ Zəfərinin birinci ildönümü münasibətilə MDU və BDU Tələbə Gənclər təşkilatlarının birgə keçirdikləri dəyirmi masa, bədii qiraət müsabiqəsi, bilik yarışı və şəhid məzunların əziz xatirəsinə həsr olunan təqdimat mərasimini, eləcə də könüllülüyün təbliği ilə bağlı fəaliyyəti xüsusi vurğulamaq olar. Bununla yanaşı, BDU-da təşkil olunan bir sıra beynəlxalq konfranslarda MDU-nun akademik heyət üzvlərinin iştirakı üçün müvafiq şərait təmin edilmişdir.

### "ADA" Universiteti

Cari tədris ilində respublikamızın qabaqcıl ali təhsil müəssisələrindən olan "ADA" Universiteti ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir. 2021-ci ilin dekabrında MDU-da "Ali təhsil müəssisəsində elmi-tədqiqat işlərinin gücləndirilməsi yolları" mövzusunda elmi-praktik seminar keçirilmişdir. Seminar ABŞ-ın Azərbaycandakı Səfirliyinin maliyyələşdirdiyi və "ADA" Universitetinin reallaşdırdığı "Azərbaycanda Tədqiqat Potensialının Gücləndirilməsi" layihəsi çərçivəsində baş tutmuşdur. Bununla yanaşı, 2022-ci ilin yanvarında "ADA" Universitetinin təqdim etdiyi təhsil imkanları haqqında bu ali təhsil müəssisəsinin əməkdaşlarının iştirakı ilə məlumatlandırma görüşü keçirilmişdir.

### Azərbaycan Texniki Universiteti (AzTU)

Hesabat dövründə ölkəmizin nüfuzlu universitetlərindən olan AzTU ilə MDU arasında əməkdaşlığın inkişafı istiqamətində əhəmiyyətli addımlar atılmışdır.Əməkdaşlıq çərçivəsində AzTU-nun bir professoru və bir dosenti davamlı əsaslarla (0,5 ştat) MDU-da tədris prosesində fəaliyyətlərini davam etdirmişlər.Payız semestrində Türkiyənin Qazi Universiteti, AzTU və MDU üçtərəfli işbirliyi çərçivəsində "İnformasiya təhlükəsizliyi: təhlükələr və müdafiə mexanizmləri" mövzusunda elmi seminar keçirilmişdir. Eləcə də, AzTU-da keçirilən doktorantların və gənc tədqiqatçıların XXIV Respublika elmi konfransında və "Maşınqayırma və energetika: yeni konsepsiyalar və texnologiyalar" mövzusunda beynəlxalq elmi-praktiki konfransda MDU fəal təmsil olunmuşdur.2022-ci ilin 20-22 may tarixlərində AzTU-nun evsahibliyi ilə keçirilən "Mühəndislikdə süni intellekt və tətbiqi riyaziyyat" mövzusunda keçirilən 4-cü beynəlxalq konfransa MDU əsas tərəfdaşlardan biri olaraq geniş heyətlə qatılmışdır. Bununla yanaşı, cari yaz semestri dövründə MDU və AzTU-nun birgə təşkilatçılığı ilə "İnnovativ texnologiyalar: rəqəmsallaşdırılmış informasiya cəmiyyətinin inkişafı və perspektivləri" mövzusunda elmi seminar maraqla qarşılanmışdır.

### Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin modernləşdirilməsi, iqtisadçı kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə dünya səviyyəli universitetə çevrilməyi hədəfləyən UNEC ilə əməkdaşlığa xüsusi önəm verilmişdir. Hesabat dövründə MDU əməkdaşları, tələbələri və magistrantları UNEC-də təşkil olunan müxtəlif forum, konfrans, vebinar, təlim və digər tədbirlərdə fəal iştirak etmişlər.Eyni zamanda, cari tədris ilində UNEC-in 3 akademik heyət üzvü MDU-da tədris prosesinə cəlb edilmişdir.Bununla yanaşı, UNEC-in təcrübəli professor və müəllimləri tərəfindən MDU-nun gənc əməkdaşları, tələbə və magistrantları üçün müxtəlif mövzuda ustad dərslər və seminarlar təşkil edilmişdir.

### Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU)

Ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən biri olan ADPU ilə əməkdaşlığın inkişafı MDU-da Pedaqoji fakültənin potensialının gücləndirilməsi və pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Hesabat dövründə MDU ADPU-nun 100 illiyinə və ADPU Quba filialının 30 illiyinə həsr olunan "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" mövzusunda keçirilən beynəlxalq elmi konfransda əsas tərəfdaşlardan biri olmuşdur.

### İqtisadiyyat İnstitutu

2022-ci ilin may ayında AMEA-nın İqtisadiyyat İnstitutu və MDU arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum elmi kadrların hərtərəfli inkişafı, gənc doktorant və tədqiqatçıların elmi biliklərinin artırılması, birgə tədqiqatların aparılması, ortaq konfransların, seminarların və "dəyirmi masa"ların keçirilməsi, ustad dərslərinin təşkili və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini özündə əks etdirir. Əməkdaşlıq çərçivəsində MDU-da "Davamlı inkişafın milli prioritetləri və müasir transformasiya siyasətinin reallıqları" mövzusunda ilk birgə elmi konfrans keçirilmişdir

### Regionda yerləşən təhsil müəssisələri ilə əməkdaşlıq

Hesabat dövründə MDU və Lənkəran Dövlət Universiteti arasında əməkdaşlığın əsası qoyulmuş və bu çərçivədə ilk birgə elmi konfrans təşkil edilmişdir. Bununla yanaşı, MDU Naxçıvan Dövlət Universiteti, BDU Qazax filialı və ADPU Quba filialında təşkil edilmiş konfranslarda fəal təmsil olunmuşdur.

Cari tədris ilində MDU ilə Mərkəzi Aran Regional Təhsil İdarəsi (RTİ) arasında əməkdaşlıq çərçivəsində birgə fəaliyyətlərə başlanılması regionda təhsilin keyfiyyətinin yüksəldilməsinə və insan kapitalının inkişafına töhfə verilməsinə hədəflənmişdir.

MDU və Bərdə Peşə Liseyi (BPL) arasında imzalanmış Anlaşma Memorandumu qarşılıqlı maraq doğuran əməkdaşlıq istiqamətləri üzrə ortaq fəaliyyətlərin həyata keçirilməsini özündə ehtiva edir. Əməkdaşlıq çərçivəsində BPL-də infotur təşkil edilmiş, MDU-nun akademik heyət üzvləri tərəfindən liseyin tələbələri üçün ustad dərslər keçirilmişdir.

Mərkəzi Aran RTİ, MDU və BPL-in birgə təşkilatçılığı ilə Yevlax şəhərinin iki ümumtəhsil məktəbində yuxarı sinif şagirdləri və peşə təmayüllü siniflərin qrup rəhbərləri üçün peşə və ixtisas seçimi barədə maarifləndirici tədbirlər təşkil olunmuşdur.

Bununla yanaşı, MDU və Mingəçevirin bir sıra ümumtəhsil məktəbləri arasında işbirliyinin inkişafına xüsusi diqqət yetirilmişdir. Əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətlər sırasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə, Zəfər Gününə, "Şuşa İli"nə, Xurşudbanu Natəvanın 190 illiyinə və digər tarixi günlərə həsr edilən birgə tədbirləri, məktəb idarəetməsi ilə bağlı təlimləri, respublika fənn olimpiadalarına hazırlıq məqsədilə məsləhət saatlarını və abituriyentlər üçün məlumatlandırıcı görüşləri xüsusi qeyd etmək olar.

### Beynəlxalq əməkdaşlığın inkişafı

Hesabat dövründə MDU beynəlxalq əməkdaşlığını daha da genişləndirmiş, qabaqcıl Türkiyə, Ukrayna,Qazaxıstan, Belarus və Almaniya universitetləri ilə əlaqələrini inkişaf etdirmiş, Erasmus+ proqramında fəal təmsil olunmuş, Kəmər və Yol Universitet Alyansına üzv qəbul edilmişdir.

### Qazi Universiteti

MDU qardaş Türkiyənin nüfuzlu, zəngin ənənələrə və modern infrastruktura malik Qazi Universiteti ilə işbirliyini uğurla davam etdirmişdir.Cari tədris ilində Qazi Universitetinin elektrik-elektronika mühəndisliyi və informasiya təhlükəsizliyi üzrə professorları Cemal Yılmaz və Ercan Nurcan Yılmaz MDU-da fəaliyyət göstərmişlər. Qonaq professorlar tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi fəaliyyətin səmərəliliyinin artırılması, Mühəndislik fakültəsinin yenidən qurulması, İnformasiya texnologiyaları fakültəsinin, Magistratura və Doktorantura Təhsil Mərkəzinin yaradılması üzrə müvafiq işçi qruplarına rəhbərlik etmişlər. Eləcə də, onlar "MDU-da kiber təhlükəsizliklə bağlı fənlərin tədrisinin təkmilləşdirilməsi" layihəsi üzrə Təhsil Nazirliyinin qrantının qazanılması və layihənin icrasında,əməkdaşların tərəfdaş Türkiyə universitetlərinə təlim və təcrübəyə göndərilməsində, "TEKNOFEST Azərbaycan"da iştirakın təmin edilməsində fəal rol oynamış, universitetdə çoxsaylı təlimlər və seminarlar keçirmişlər.

MDU və Qazi Universiteti arasında əməkdaşlıq çərçivəsində 2021-ci ilin noyabrın 6-da Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans, 2022-ci ilin 23 fevral tarixində isə Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunan "İnsanlıq tarixinin qara ləkəsi: Xocalı qətliamı" mövzusunda anım tədbiri təşkil edilmişdir.Bununla yanaşı, MDU-nun akademik və inzibati heyəti üzvləri Qazi Universitetində onlayn formatda təşkil edilən bir sıra tədbirlərdə fəal iştirak etmişlər.

2022-ci ilin 7-8 aprel tarixlərində Türkiyənin Qazi Universitetinin Texnoloji fakültəsinin dekanı Süleyman Tekeli və Kompüter mühəndisliyi bölümü rəhbəri Osman Ayhan Erdem MDU-da olmuşdurlar.Onların MDU-nun akademik və inzibati heyət üzvləri, tələbə və magistrantları ilə keçirilən görüşlərində əməkdaşlığın potensial istiqamətləri müzakirə edilmişdir.

Bununla yanaşı, hesabat dövründə MDU-nun 5 əməkdaşı Qazi Universitetində bir aylıq təlim və təcrübə keçmişdir. Hazırda Qazi Universitetinin Eğitim fakültəsinin dekanı professor Mahmut Selvi MDU-nun "Dayanıqlı inkişaf" multidisiplinar elmi jurnalının redaksiya şurasının üzvü olaraq universitetin elmi fəaliyyətinə dəstək göstərir.MDU-nun 1 əməkdaşı və 1 məzunu isə Türkiyənin Qazi Universitetində müvafiq olaraq "Təhsilin idarə edilməsi" və "Kompüter elmləri" ixtisasları üzrə doktorantura təhsili alırlar.

### Ankara Hacı Bayram Veli Universiteti (AHBVU)

Türkiyənin yenilikçi və müasir ali təhsil müəssisələrindən biri olan AHBVU ilə yaradılan əməkdaşlıq əsasən MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin potensialının gücləndirilməsinə, xüsusilə turizm təhsilinin inkişafına töhfə verilməsinə hədəflənmişdir. Bu məqsədlə əməkdaşlığın yaradıldığı bir ildən çox müddətdə universitetlər arasında qarşılıqlı mühazirələr, birgə elmi konfranslar və nəzəri-praktiki seminarlar təşkil edilmiş, MDU tələbələrinin AHBVU-nun İqtisadi və idari bilimlər fakültəsinin bir sıra onlayn dərslərinə qatılmaq imkanları təmin olunmuşdur. Hesabat dövründə MDU və AHBVU arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan onlayn formatda birgə elmi konfrans keçirilmişdir.

### KTO Karatay Universiteti

Türkiyənin sənaye mərkəzlərinin birində yerləşən və müasir kampus məkanına sahib olan KTO Karatay Universiteti ilə əməkdaşlıq diqqətdə saxlanılmışdır. Əməkdaşlıq çərçivəsində 2021-ci ilin noyabrın 5-də Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans keçirilmişdir. Eləcə də, MDU 2022-ci ilin 17-18 iyun tarixlərində KTO Karatay Universitetində "Dayanıqlı ağıllı kənd təsərrüfatı və islam maliyyəsi" mövzusunda keçirilən 2-ci Karatay Beynəlxalq İslam İqtisadiyyatı və Maliyyəsi Konfransına tərəfdaşlıq etmişdir. Konfransın açılışında MDU-nun rektoru çıxış etmiş, bölmə iclaslarında universitetin akademik heyət üzvləri elmi məruzələrini təqdim etmişdirlər.

### İstanbul Gedik Universiteti (İGÜN)

MDU və İGÜN arasında əməkdaşlığın əsası 2021-ci ilin dekabrın 13-də müvafiq protokolun imzalanması ilə qoyulmuşdur. Qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutan protokol tələbə və akademik heyətin mübadiləsi, birgə elmi tədqiqatlar, universitet-sənaye əməkdaşlığı çərçivəsində ortaq fəaliyyətləri əhatə edir. Hesabat dövründə MDU-nun 3 əməkdaşı İGÜN-də bir həftəlik təlim və təcrübədə olmuşdur.

### Yıldız Texniki Universiteti (YTU)

Cari tədris ilində MDU, AzTU və YTU-nun birgə təşkilatçılığı ilə Xocalı soyqırımının otuzuncu ildönümünə həsr olunan anım tədbiri keçirilmişdir. Tədbirdə hər üç universitetdən olan akademik heyət üzvləri "Xocalı soyqırımı bütün türk dünyası üçün nə ifadə edir?", "Xocalı soyqırımı: türk-müsəlman qətliamı" və "Xocalı qətliamı türk millətinin istiqlalına qarşı sui-qəsddir" mövzularında çıxış etmişdirlər.

### Almaniyanın Siegen Universiteti

2022-ci ilin 11 mart tarixində MDU Siegen Universitetində "Keçid iqtisadiyyatlı ölkələrdə sahibkarlıq" mövzusunda onlayn formatda təşkil edilən beynəlxalq seminarda təmsil olunmuşdur. Bundan əlavə, 2022-ci ilin aprelində Siegen Universitetinin qonaq professoru M.İbrahimov MDU-nun akademik heyət üzvləri, tələbə və magistrantlarının iştirakı ilə "Sahibkarlıq ekosistemi" mövzusunda seminar keçirmişdir.

### Ukrayna universitetləri ilə əməkdaşlıq

Hesabat dövründə Ukraynanın Kiyev Milli İqtisadiyyat Universiteti (KNEU) və Kiyev Milli Texnologiya və Dizayn Universiteti (KNUTD) arasında əməkdaşlıq inkişaf etdirilmişdir. 2021-ci ilin oktyabrında MDU-nun rektoru Kiyevdə KNEU və KNUTD rektorları ilə anlaşma memorandumları imzalamışdır. Potensial əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutan memorandumlar tələbə və müəllim mübadiləsi, ortaq təhsil proqramları, tədqiqatlar, elmi konfranslar, forumlar və digər istiqamətlərdə birgə fəaliyyətləri nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində cari tədris ilinin payız semestrində MDU-nun akademik heyət üzvləri tərəfdaş Ukrayna universitetlərində təşkil olunan beynəlxalq elmi konfrans, biznes forum və digər tədbirlərdə fəal iştirak etmişdirlər.

### Qazaxıstan Universitetləri ilə yeni əməkdaşlıq

2022-ci ilin iyulunda MDU-nun rektoru Qazaxıstanın dünya universitetlərinin QS reytinqində yer alan nüfuzlu ali təhsil müəssisələrində - Ahmet Yesevi Universiteti (AYU), Abay adına Qazax Milli Pedaqoji Universiteti (Abay Universiteti) və Qazax Milli Aqrar Tədqiqat Universitetində (KazNARU) olmuşdur.Ziyarət çərçivəsində AYU və Abay Universiteti ilə MDU arasında anlaşma memorandumları imzalanmışdır. Memorandumlar universitetlər arasında tələbə və müəllim mübadiləsi, birgə tədqiqatların aparılması, tədris-metodiki fəaliyyət sahəsində təcrübə mübadiləsi, akademik və inzibati heyət üzvlərinin ixtisaslarının artırılması, ortaq konfrans və seminarların keçirilməsi, qarşılıqlı mühazirələrin təşkili, beynəlxalq layihələrdə birgə iştirak və digər istiqamətlərdə əməkdaşlığın yaradılmasını nəzərdə tutur.Eləcə də KazNARU-da keçirilən görüşlərdə universitet idarəçiliyi və beynəlxalq reytinqlərdə iştirakla bağlı təcrübə mübadiləsi, ekologiya, ətraf mühitin mühafizəsi, bərpa olunan enerji sahəsində birgə tədqiqatların və layihələrin həyata keçirilməsi, ortaq yay məktəblərinin təşkili və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

### Erasmus+ proqramı

MDU Avropa İttifaqının Erasmus+ proqramı çərçivəsində həm potensialın gücləndirilməsi, həm də tələbə və müəllim mübadiləsi layihələrində iştirak etmişdir. Bu proqram çərçivəsində cari tədris ilində MDU-nun bir tələbəsi Rumıniyanın Transilvaniya Braşov Universitetində bakalavr, bir əməkdaşı isə Sloveniya Respublikasının Nova Gorica Universitetində doktorantura təhsilini davam etdirmişdir. Eyni zamanda, hazırda MDU "Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar" (GEOCLIC) adlı Erasmus+ layihəsində fəal iştirak edir.

Bunlarla yanaşı, MDU 2022-ci ilin 22-24 mart tarixlərində Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində təşkil edilən 5-ci MENA Ali Təhsil Liderlik Forumunda təmsil olunmuşdur. Forumun "Ali təhsilin yenidən qurulması: rəqəmsallaşma və universitetlərin gələcəyi" adlı bölməsində MDU-nun rektoru "Yeni dövrün universitetinə çevrilmək yolunda: Mingəçevir Dövlət Universiteti təcrübəsi" mövzusunda təqdimatla çıxış etmişdir.

Eləcə də, cari tədris ilində Belarus Respublikasının Baranoviç Dövlət Universiteti ilə reallaşdırılan layihə çərçivəsində MDU-nun təcrübəli akademik heyət üzvləri tərəfindən keçirilən mühazirələr bu ali təhsil müəssisəsinin tələbə və magistrantlarının böyük marağına səbəb olmuşdur.

Beləliklə, dövlətin və tərəfdaşların dəstəyi ilə MDU-da baş verən keyfiyyət dəyişiklikləri yeni inkişaf mərhələsində olan universitetin strateji hədəflərinə yaxınlaşmasına böyük zəmin yaratmışdır.

# Yaddaşlara köçən təhsil fədaisi



## Bütün həyatıyla 132 nömrəli doğma məktəbinə bağlı unudulmaz Aliyə Təhmasib...

Yaşının 90-nına çatmağına az qalan, ölkənin təhsil və ictimai-siyasi həyatında özünəməxsus rolu və yeri olan "Azərbaycan müəllimi" qəzeti mənə bu pedaqoji mətbu orqanın əməkdaşı olaraq respublikamızın bir çox tanınmış təhsil işçiləri ilə, pedaqoqlarla, sözün həqiqi mənasında ən yaxşı məktəblərlə, direktorlarla tanış olmaq, onların fəaliyyətini işıqlandırmaq imkanları verib. İllər bir-birini əvəzlədikcə iş fəaliyyətimdən dolayı tanıdıqlarım və tanıtdırmaq istədiyim təhsil qəhrəmanlarımın sayı da çoxalıb. Ancaq etiraf edim ki, həyatımda elə insanlar var ki, təkcə adının çəkilməsi belə yetər ki, həmin andaca gözümün önündən onların ömür yolu, fəaliyyəti bir kinolenti kimi canlansın. Tanınmış pedaqoq, Bakının sayılıb-seçilən təhsil ocaqlarından biri olmuş Hüseyn Cavid adına 132 nömrəli tam orta məktəbin uzun illər direktoru kimi fəaliyyət göstərmiş Azərbaycanın Əməkdar müəllimi, Prezidentin fərdü təqaüdçüsü mərhum Aliyə Təhmasib də məhz mənim özündən və məktəbinin nailiyyətlərindən yazdığım unudulmayan qəhrəmanlarımdandır. Artıq neçə gündür aramızda olmayan gülərüzlü, xoşsimalı pedaqoqumuz haqqında keçmiş zamanda danışmaq sözün düzü çox çətin olsa da, bu dəfə onu adının təhsil tariximizdə qalan, pedaqoji ictimaiyyət arasında böyük hörmət və nüfuz sahibi kimi anmaq istədim.

### Təhsil ocağının şagirdi, sonradan isə direktoru oldu

Aliyə Mehdi qızı Təhmasib 1947-ci il martın 13-də Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 1954-cü ildə Bakıdakı Hüseyn Cavidin adını daşıyan 132 nömrəli tam orta məktəbə gedib. 1965-ci ildə orta təhsilini "əla" qiymətlərlə bitirən gənc qızın ağlına belə gəlməzdi ki, bir vaxt gələcək öz doğma məktəbinin direktoru olaraq bu təhsil ocağını ölkə miqyasında tanıdacaq.

1966-cı ildə ADU-nun filologiya fakültəsinin qiyabi şöbəsinə "əla" qiymətlərlə daxil olan Aliyə xanımı rektorluq əyani şöbədə oxumağa dəvət etsə də, razılaşmayıb. Ailə vəziyyəti ilə bağlı ali təhsil almaqla barəbər 1967-ci ildə 132 nömrəli tam orta məktəbdə əmək fəaliyyətinə başlayır. O, burada kitabxanaçı, pioner baş dəstə rəhbəri işləyir. 1970-ci ildən həmin təhsil ocağında bir müəllim kimi Azərbaycan dili və ədəbiyyat fənnini tədris etməyə başlayır. Yaxşı işinə, qabaqcıl pedaqoji fəaliyyətinə görə 1985-ci ildə məzunu olduğu doğma məktəbinə direktor təyin edilir. Və məhz onun fəaliyyəti dövründə 132 nömrəli tam orta məktəbin şan-şöhrəti daha da artır, uğurları çoxalır...

### Ulu öndər Heydər Əliyevin hörmət bəslədiyi pedaqoqlardan bir idi

Azərbaycan təhsilin inkişafında xüsusi xidmətləri olan, Əməkdar müəllim Aliyə Təhmasib 1985, 1989-cu illərdə SSRİ və Azərbaycan SSR Ali Sovetinin deputatı kimi respublikanın ictimai həyatında da mühüm rol oynayıb. Yüksək təşkilatçılıq bacarığına, qabaqcıl iş təcrübəsinə malik Aliyə xanım ulu öndər Heydər Əliyevin hörmət bəslədiyi pedaqoqlardan bir idi. Özü bu barədə hər zaman qürur hissi ilə danışardı: "Heydər Əliyev elə bir şəxsiyyət idi ki, gələcəyi tam aydınlığı ilə görürdü. O, elm və təhsilimizə, müəllimlik peşəsinə layiqli qiymət verən humanist, alicənab şəxsiyyət idi. Ulu Öndərdən özümə, eləcə də digər həmkarlarıma qarşı hər zaman səmimiyyət və diqqət görmüşəm. Onu bu xalqa sevdirən doğma Azərbaycanı varlığı qədər sevməsi və əziz tutması olub".

Aliyə Təhmasib ictimai fəaliyyəti ilə hər zaman fərqlənib. Respublikanın istər siyasi, istərsə də mədəni həyatında özünəməxsus yeri olan təcrübəli pedaqoq 1989-1990-cı illərin məlum hadisələri ilə əlaqədar Respublika Qadınlar Şurasının sədr müavini kimi Moskvada SSRİ Qadınlar Cəmiyyətinin geniş yığıncağında erməni qəsbkarlarının Azərbaycanda törətdikləri vəhşiliklər barədə məruzə edib, Ali Sovetin sessiyalarında cəsarətlə öz mövqeyini bildirib. 1992-ci ildə Türkiyənin Ankara şəhərində keçirilən təhsil işçilərinin həmkarlar təşkilatının qurultayında Xocalı faciəsini törədən ermənilərin vəhşiliklərini müxtəlif ölkələrdən gəlmiş nümayəndələrin diqqətinə çatdırıb, fotoşəkillər, sənədlər nümayiş etdirib.

1995-ci ildə İzmirdə keçirilən türk xalqlarının Dostluq, Qardaşlıq qurultayının nümayəndəsi olub. O, həmçinin Azərbaycan müəllimlərinin və Azərbaycan qadınlarının qurultaylarına nümayəndə seçilib. Aliyə Təhmasib yüksək dövlət mükafatları ilə yanaşı, bir sıra diplom və fəxri fərmanlarla təltif olunub. Tanınmış pedaqoq 2007-ci ilin mart ayında təhsilimizin inkişafındakı böyük xidmətlərinə görə və ömrünün 60, əmək fəaliyyətinin 40 ili tamam olması münasibətilə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Aliyə Təhmasib Respublika Təhsil Şurasının üzvü olub. Səbail rayonu YAP Qadınlar Məclisinin fəal üzvü kimi ictimai iş aparıb.

2010-cu il sentyabrın 15-də uzun müddətli təmirdən çıxan təhsil ocağının 132-134 nömrəli Təhsil Kompleksi adı ilə fəaliyyət göstərməsindən sonra fəxri təqaüdə yola salınır.

### Onu yaşadan xatirələr...

*Adətən bu dünyadan köçən insanı yad etmək üçün qohumlar, yaxından tanıyanlar bir araya gələrək onun xatirəsinə ehtiramlarını bildirirlər. Aliyə xanımı yad etmək üçün fərqli bir məkanda - əslində isə vaxtilə ikinci evi olmuş, bütün ruhu, canı ilə bağlı olduğu 132-134 nömrəli Təhsil Kompleksində müəllim həmkarları ilə bir araya gələrək onu xatırlamağı özümüzə mənəvi borc bildik.*

### Qəlbi ancaq insanlara yaxşılıq etməklə döyünürdü

*Sara XANLAROVA, 132-134 nömrəli Təhsil Kompleksinin direktoru, Əməkdar müəllim:* - Aliyə Təhmasiblə bağlı xatirələrim mənim üçün unudulmazdır. Biz onunla uzun illər yanaşı- bir binanın o üzündə Aliyə xanım132 nömrəli tam orta məktəbin direktoru, bu üzündə isə mən 134 nömrəli tam orta məktəbin direktoru olmuşuq. 132 nömrəli tam orta məktəb Aliyə Təhmasibin adı ilə bağlıdır. Kimi dindirsəniz, kimdən soruşsanız Aliyə xanımın yüksək alicənablığından, insanpərvərliyindən danışacaq. Qismət belə gətirib ki, biz onunla ikimiz də Bakılı- İçərişəhərliyik. Əlbəttə ki, bu tellər də bizi özünəməxsus bağlayırdı. Bundan başqa həmkar kimi çox böyük dostluğumuz olub, bir çox mötəbər tədbirlərdə bir yerdə olmuşuq. İlk növbədə Aliyə xanımın gözəl, böyük qəlbi var idi: insanpərvər, xeyirxah, ürəyiaçıq... Onun qəlbi ancaq insanlara yaxşılıq etməklə döyünürdü. Mən Aliyə xanım haqqında xüsusi bir məqama da toxunmaq istəyirəm.Bu məktəbdə işlədiyi dövrdə onun qaynanası Bilqeyis xanım Azərbaycan dili və ədəbiyyat müəllimi idi. Dövrünün ən peşəkar, gözəl müəllimlərindən idi. El arasında belə bir məsəl var: gəlin ocağa çəkər. Aliyə xanım da qaynanası kimi xanım- xatın, öz fənnini gözəl bilən, onu uşaqlara sevdirməyi bacaran bir pedaqoq olub. Eyni zamanda mən Aliyə xanımın öz ailəsinə olan gözəl münasibətini görmüşəm. O, qaynanasını ana bilirdi, anası qədər onu sevirdi. Təsadüf elə gətirib ki, Aliyə Təhmasibin gəlini Leyla da ibtidai sinif müəllimi kimi artıq neçə illərdir ki, bizim təhsil ocağında uğurla fəaliyyət göstərir.

Mənim üçün çox doğma, çox əziz bir insan itirdim, onun haqqında keçmişdə danışmaq çox ağırdır.

Bilirsiniz, insanın bu dünyadan köçən ancaq cismidir, ruhu isə hər zaman aramızda dolaşır. Aliyə xanımın təhsil sahəsində əvəzsiz xidmətləri olub və dövlətimiz onu ən ali mükafatlara layiq görüb. O, əsl Azərbaycan ziyalısı idi.

### Hələ onun pedaqoji şurada o gözəl diksiyası və səs tembri ilə danışığını demirəm...

*Xanım MURADOVA, biologiya müəllimi:* - Məzunu olduğum, Bakının ən nüfuzlu məktəblərindən sayılan H.Cavid adına 132 nömrəli tam orta məktəbə 1994-cü ildə biologiya müəllimi kimi işləməyə gəldim. Vaxtilə mənə dərs deyən müəllimlərlə çiyin-çiyinə işləmək bir ayrı məsuliyyət idi. Həmin illərdə məktəbimizin direktoru Aliyə Təhmasib idi. Mən fəxr edirəm ki, Aliyə xanımın rəhbərlik etdiyi dövrdə müəllimlik fəaliyyətinə başladım. Otağı birinci mərtəbədə yerləşirdi. Hər gün işə gələndə onun otağının qarşısından keçərək siniflərə daxil olurduq. O gözəl, səmimi insanla salamlaşanda artıq 132 nömrəli məktəbin ab-havası hiss olunurdu. O qədər mehriban, qayğıkeş, şagirdləri öz doğma övladları kimi sevən, müəllimlərə qayğı və səmimiyyətlə yanaşan Aliyə xanım... Mən hələ onun pedaqoji şurada o gözəl diksiyası və səs tembri ilə danışığını demirəm... Danışanda hamı diqqətlə o gözəl səsi dinləyirdi.Onun rəhbərlik etdiyi məktəbdə işlədiyim, onunla söhbət edib, daim məsləhətlər üçün çəkinmədən müraciət etdiyim üçün xoşbəxtəm. O hamını dinləməyi bacarır və əlindən gələn köməyi edirdi.

### Mənim bütün sonrakı müəllimlik fəaliyyətimdə bir mayak rolunu oynadı

*Aygün ƏFƏNDİYEVA, tarix müəllimi:* - Qəlbimdə həmişə özəl yeri olan bu gözəl insan haqqında söz deməyin məsuliyyətini bildiyimdən nədən başlamaqda çətinlik çəkirəm. Sağlığında böyük hörmət, nüfuz qazanmış, haqq dünyasına qovuşduqdan sonra çoxlarının xatirində yüksək mənəviyyatlı insan, unudulmaz müəllim, qayğıkeş ana, ləyaqətli Azərbaycan qadını kimi qalmış dəyərli pedaqoq Aliyə Təhmasib haqqında, çox təəssüflər olsun ki, bu gün keçmiş zamanda danışırıq.

Aliyə xanımla ilk tanışlığım uzun illər öncə 90-ci illərin əvvəllərinə təsadüf edir. Yaxşı yadımdadır, iş yerimi dəyişmək üçün qəbulunda oldum. Sadə, gülərüz, səmimi bir insanla qarşılaşdım. Mənimlə bir az söhbət etdikdən sonra işə qəbul olunduğumu bildirdi və sənədlərimi gətirməyimi söylədi. Belə bir gözəl insanla çalışacağıma çox sevinmişdim. Bu peşəkar pedaqoq mənim bütün sonrakı müəllimlik fəaliyyətimdə bir mayak rolunu oynadı. İşlədiyim müddət ərzində qazandığım uğurlarda Aliyə Təhmasibin mənəvi dəstəyini həmişə hiss etmişəm və bunun üçün də ona borcluyam. O, insanlarda potensialı görərək dəyərləndirməyi və motivasiya etməyi bacarırdı. Təşkilatçılıq və idarəetmə qabiliyyəti ilə yanaşı, həm də gözəl bir müəllim idi. Şagirdləri onun keçdiyi hər bir dərsdən böyük bir zövq alırdılar, hamının sevimlisi idi. Sözün əsl mənasında, peşəkar bir müəllim olan Aliyə Təhmasibin itkisi bütün kollektiv üçün çox üzücüdür

### İnsanda hər şey gözəl olmalıdır

*Bəli, içdən gələn bu sözlərin hər biri o əziz insana ithaf olunurdu.Yazını da elə müəllim həmkarlarından birinin fikri ilə bitirmək istərdim. Böyük rus yazıçısı A.P.Çexov yazırdı: "İnsanda hər şey gözəl olmalıdır: həm siması, həm geyimi, həm qəlbi, həm də düşüncələri."Bütün bu sözləri Aliyə xanıma şamil etmək mümkündür. O özünün görkəmi, yerişi, duruşu, davranışı ilə hamıya nümunə idi..*

*ALLAH sizə rəhmət eləsin, gözəl pedaqoq!*

**Samirə KƏRİMOVA**

## Əmək bazarının tələblərinə cavab verən peşə təhsili

2030-cu ilədək Azərbaycanda "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nin bərqərar olacağını vəd edən yeni sənəddə peşə təhsilində də növbəti dönəm üçün əhəmiyyətli tədbirlər planlaşdırılıb, bütövlükdə təhsilin, o cümlədən peşə təhsilinin məqsədi müəyyənləşdirilib. "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə"də təhsil məsələləri sıralanıb. "Milli Prioritet 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkani" başlığı altında verilən təsvirdə "XXI əsrin tələblərinə uyğun təhsil" əsas hədəf olaraq müəyyənləşdirilib. Geriyə qalır məqsədə doğru hərəkət. Yeni Strategiyada bir hərəkət planı da var. Məsələn, peşə təhsili pilləsində əsas fəaliyyət istiqaməti olaraq əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili və təlim-tədris prosesinin qurulması nəzərdə tutulub.

# Peşə təhsilində yeni hədəflər

## Tələbə, müəllim, direktor və direktor müavini olmaq istəyənlər üçün müsabiqələr davam edir



⇦ Əvvəli səh.1

### Peşə təhsillilərin sayı artacaq…

Hər il peşə təhsili müəssisələrinə üz tutanların sayı artır. 4 gündür peşə təhsili müəssisələrinə qəbul başlayıb və artıq 7134 nəfər qeydiyyatdan keçərək müxtəlif peşə ixtisasları arasında seçim edib. Prosesin avqustun 12-dək davam edəcəyini nəzərə alsaq, rəqəmlərin dəfələrlə artacağını təsəvvür etmək çətin deyil.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na görə, peşə təhsili müəssisələrinə qəbul olunanların sayının 17140 tələbəyə çatdırılacağı hədəflənib. Bu da sənədin əhatə etdiyi dövr ərzində peşə təhsili müəssisələrinə qəbul olunan tələbələrin sayının 11000 nəfər, yəni 50 faiz artması deməkdir. Yüksək texniki peşə təhsili ilə əhatə edilmiş tələbələrin sayının da artacağı gözləniləndir.

Artıq bir neçə ildir başlayan artım dinamikası bu il də davam edir.Bu barədə Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor vəzifəsini icra edən Ceyhun Kərəmov məlumat verib. Onun sözlərinə görə, peşə təhsili müəssisələrinə qəbul planında 10 faiz artım nəzərdə tutulub. Dövlət sifarişi əsasında olan ixtisaslar üzrə qəbul planında artım ötən illə müqayisədə 12 faiz təşkil edib. Ödənişli ixtisaslar üzrə də qəbul planı artırılıb.

C.Kərəmov 2022/2023-cü tədris ili üzrə tələbə qəbulunun 66 peşə təhsili müəssisəsində 127 ixtisas olmaqla 23340 yer üzrə aparılacağını deyib. Bu il peşə təhsili üzrə 5 yeni ixtisas əlavə edilib. Bunlardan 2-si yüksək-texniki, 3-ü isə texniki peşə ixtisasıdır. Ceyhun Kərəmovun sözlərinə görə, hər il 15 yeni ixtisasın peşə təhsilinə qəbula salınması nəzərdə tutulur: "İxtisasartırma və təlimlərlə əmək bazarının tələbatının ödənilməsi əsas prioritetdir".

Strategiyaya görə, peşə təhsilinin əhatəsinin genişləndirilməsi və məzmununun yaxşılaşdırılmasına dair təkliflərin həyata keçirilməsi nəticəsində peşə təhsilli şəxslərin əmək bazarında xüsusi çəkisi artacaq. Bu dinamika yüksək texniki peşə təhsili alanların sayında da özünü göstərəcək. Məsələn, ötən tədris ilində yüksək texniki peşə təhsili verən ixtisaslar üzrə 860 tələbə qəbulu aparılmışdısa, bu il həmin ixtisaslar üzrə 880 plan yeri ayrılıb. Yeni tədris ili üçün 21 ixtisas üzrə qəbul həyata keçiriləcək. Yüksək texniki peşə təhsili üzrə qəbul 10 şəhər və rayonda həyata keçirilir. Bakı, Sumqayıt, Şəki, Qəbələ, İsmayıllı, Gəncə, Bərdə, Cəlilabad və Lənkərandakı peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili verilir.

### Müasir təminatlı və yeni məzmun əsasında əlavə peşə təhsili mərkəzləri yaradılacaq

Göründüyü kimi, yüksək texniki peşə təhsili müasir təminatlı və yeni məzmun əsasında yaradılan peşə təhsili müəssisələrində təşkil edilir. Yüksək texniki peşə təhsili almaq istəyənlərin sayının artması, öz növbəsində müasir peşə təhsili müəssisələrinə yenilərinin əlavə olunmasını zəruri edir.

İndiyədək peşə təhsili alanların 45 faizi Bakıdakı peşə təhsili müəssisələrinin hesabına olub. Ancaq bundan sonrakı mərhələdə peşə təhsillilərin sayı bütün ölkə coğrafiyasını əhatə edən təhsil müəssisələri sayəsində artacaq. Belə ki, müasir təminatlı və yeni məzmun əsasında əlavə peşə təhsili mərkəzləri ayrı-ayrı rayonlarda yaradılacaq. Növbəti illərdə 8 əlavə peşə təhsili mərkəzinin fəaliyyətə başlaması planlaşdırılıb. Bu hədəfə doğru fəaliyyət isə artıq çoxdan başlayıb. Bakıda, Qəbələdə, Bərdədə, Cəlilabadda müasir təminatlı və yeni məzmun əsasında peşə təhsili müəssisələri açılıb. Sumqayıtda sənaye və İT yönündə peşə təhsili müəssisəsinin yaradılması istiqamətində iş aparılır. Füzuli şəhərində yeni müasir tipli peşə təhsil mərkəzinin bünövrəsi qoyulub. C.Kərəmovun sözlərinə görə, növbəti il Lənkəranda yeni peşə təhsili müəssisəsinin açılması planlaşdırılır. Bir çox digər rayonlarda da peşə təhsili müəssisələrinin fəaliyyəti üçün zəmin hazırlanır.

Müasir təhsil müəssisələri, sadəcə infrastrukturuna görə yox, həm də yeni məzmunlu təhsil proqramları ilə fərqlənəcək. Yeni strategiya peşə təhsili üzrə əmək bazarının tələblərinə cavab verən və nəticə əsaslı təhsil proqramlarının (kurikulumların) hazırlanması, bu prosesə işəgötürənlərin və sahibkarların cəlb edilməsi, hər il 15 nəticəəsaslı təhsil proqramının tətbiqini nəzərdə tutur.

Yeni Strategiyanın əhatə etdiyi dövrün sonuna 15000 nəfərin qısamüddətli ixtisasartırma təhsil proqramlarına cəlbi planlaşdırılıb.

Uğurlu peşə təhsili müəssisələrinin mərhələli şəkildə adambaşı maliyyələşməsi sisteminə keçirilməsi, dövrün sonuna yeni maliyyələşmənin əhatə etdiyi təhsilalanların sayının 12000 nəfərə çatdırılması nəzərdə tutulub.

**Ruhiyyə DAŞSALAHLI**

# Beynəlxalq qiymətləndirmə tədqiqatları barədə müəllimlərin məlumatlılığı artırılıb

## Beynəlxalq qiymətləndirmə düşərgəsinə yekun vurulub



Bu günlərdə Lənkəranda Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) və Lənkəran-Astara Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Beynəlxalq qiymətləndirmə düşərgəsi təşkil olunub. Üç gün davam edən düşərgədə Lənkəran-Astara Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində çalışan 35 müəllim iştirak edib.

Bəs, düşərgədə müəllimlər hansı istiqamətlər üzrə məlumatlanıb? Onlar beynəlxalq qiymətləndirmə tədqiqatlarına uyğun hansı fəaliyyətlərə cəlb olunublar? Suallarımıza cavab tapmaq məqsədi ilə ARTİ-nin direktor müavini Ülkər Babayeva ilə əlaqə saxladıq, düşərgədə həyata keçirilən fəaliyyətlərlə bağlı fikirlərini öyrəndik.

Təhsil İnstitutunun direktor müavini Ülkər Babayeva bizimlə söhbətində beynəlxalq qiymətləndirmə düşərgəsindən söz açıb. Düşərgənin təşkilində əsas məqsədin müəllimlərin Beynəlxalq qiymətləndirmə tədqiqatları barədə məlumatlılığını artırmaq, təhsildə qərarların verilməsində, təhsil siyasətinin formalaşmasında qiymətləndirmə tədqiqatlarının vacibliyini vurğulamaq, qiymətləndirmə siyasətinin təkmilləşdirilməsində müəllimlərin iştirakını təmin etməkdən ibarət olduğunu bildirib: "Düşünürəm ki, bu, düşərgə iştirakçıları üçün yaxşı fürsət idi. Müəllimlər müxtəlif araşdırma və müzakirələrə cəlb olunmaqla PISA, PIRLS, TIMSS, ICILS və TALIS yönümlü mətn və tapşırıqların hazırlanması metodikaları ilə tanış olub, eyni zamanda müvafiq səriştələri ölçməyə imkan verən tapşırıq nümunələri hazırlayıb və konstruktiv rəylər əsasında həmin tapşırıq nümunələrini inkişaf etdirmək imkanı əldə ediblər."

### PISA

Ülkər Babayeva düşərgədə ayrı-ayrı günlərdə həyata keçirilən fəaliyyətlər haqqında danışıb. O, bildirib ki, ilk gün düşərgə iştirakçılarına PISA-Beynəlxalq Qiymətləndirmə tədqiqatı haqqında geniş məlumat çatdırıldıqdan sonra auditoriya 4 qrupa bölünüb. Qruplar müvafiq tapşırıqlar üzrə təlimatlanıb, yaşadıqları ərazini mədəniyyət və tarix, rəqəmsal təsvir, iqtisadi və fiziki baxımdan araşdırıblar. Araşdırmalar əsasında hər bir qrup təlimata uyğun müxtəlif tipli mətn nümunələri yaradıb və PISA yönümlü tapşırıq nümunələri hazırlayıb.

### PIRLS

Ülkər Babayeva bildirib ki, PIRLS IV sinif şagirdlərinin oxu savadlılığını ölçən beynəlxalq qiymətləndirmə tədqiqatıdır. Düşərgə iştirakçılarının bu tətqiqat üzrə maariflənməsini və müvafiq bilik, bacarıqlara yiyələnməsini təmin etmək üçün uyğun fəaliyyətlər həyata keçirilib. Düşərgə iştirakçılarından ibarət auditoriya qruplara bölünərək bildikləri bir neçə hekayəni təhlil edib, seçdikləri süjet xətti üzrə yeni hekayələr qurub. Sonra iştirakçılar həmin yeni hekayələr əsasında PIRLS yönümlü tapşırıq nümunələri hazırlayıblar.

### TIMSS

TIMSS - Beynəlxalq Qiymətləndirmə Tədqiqatının əhəmiyyətindən və aktuallığından da söz açan Təhsil İnstitutunun direktor müavini iştirakçıların bu tətqiqata da xüsusi maraq göstərdiyini diqqətə çatdırıb. Ülkər Babayeva deyib ki, müəllimlərə həm riyaziyyat, həm təbiət elmləri üzrə nümunə suallar təqdim edilib. Bundan əlavə, düşərgə iştirakçıları ARTİ tərəfindən verilmiş istiqamətlərə istinadən TIMSS yönümlü tapşırıq nümunələri hazırlayıblar.

### TALIS

TALIS-Beynəlxalq Qiymətləndirmə Tədqiqatı haqqında da danışan Ülkər Babayeva bildirib ki, Azərbaycan TALIS beynəlxalq qiymətləndirmə tədqiqatının pilot mərhələsində iştirak edib. Pilot mərhələnin əsas məqsədi tədqiqatın sınaq mərhələsində istifadə olunacaq sualların respondentlər tərəfindən anlaşıla bilən olub-olmadığını yoxlamaqdır. Düşərdə iştirakçıları TALIS tədqiqatının tələblərini nəzərə alaraq, Azərbaycan təhsil sistemində müəllimlər üçün ən vacib səriştələri seçib bu səriştələrə dair nümunə peşə standartları hazırlayıblar.

Yekunda ARTİ-nin direktor müavini Ülkər Babayeva müəllimlər üçün təşkil olunan Beynəlxalq qiymətləndirmə düşərgəsinin davamlı olaraq digər regionlarda da keçiriləcəyini bildirib.

**Niyazi RƏHİMOV**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7286 **Sifariş** 2203

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Sumqayıt şəhər** 15 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Murtuzova Ülviyyə Höcətulla qızına verilmiş A-302374 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əhmədova Nurlanə Aydın qızına verilmiş A-583351 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Allahverdiyev Sarı Abbas oğluna verilmiş AO-1313 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 86 nömrəli tam orta məktəbin IX sinfini 01.07.2019-cu ildə bitirmiş Məmmədov Elcan Elşad oğluna verilmiş C-001008 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2020-ci ildə Babayev Fəxri Səbuhi oğluna verilmiş C-060420 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 1999-cu ildə Xabibulin Fərhad Teymurxan oğluna verilmiş A-034024 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** İvanovka kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Dubrovin Nikolay İvanoviçə verilmiş 583030 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 1 nömrəli tam orta məktəbin IX sinfini 07.07.2012-ci ildə bitirmiş Əzizov Mircavad Tahir oğluna verilmiş A-191283 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qapanlı kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Həsənova (Əliyeva) Türkan Elşad qızına verilmiş A-801980 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Universiteti** tərəfindən 1979-cu ildə Mustafayeva Lalə Fuad qızına verilmiş Ч-770323 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 2 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Ağayev Arzu Hürrü oğluna verilmiş A-737630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Şəmsabad kənd tam orta məktəbi 1978-ci ildə bitirmiş Qasımova (Babayeva) Aybəniz Yusif qızına verilmiş K-974892 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1993-cü ildə Sadıqov Rövşən İsmayıl oğluna verilmiş ЦB-838124 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Kooperasiya Kolleci** tərəfindən 2008-ci ildə Sultanova Əfsanə Akif qızına verilmiş BB-II-082723 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 17 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Qarayeva (Rzayeva) Aynur Əligül (Əliqulu) qızına verilmiş A-158006 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köhnə Alvadı kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Babayeva İlahə Nazim qızına verilmiş A-567592 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Vel kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Babayev Nemət İlham oğluna verilmiş B-273885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Vel kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Babayev Taleh Rafaddin oğluna verilmiş A-241102 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** N.Nərimanov rayonu "Erudit" tam orta məktəbi 14.07.2020-ci ildə bitirmiş Tağızadə Fərhad Zaur oğluna verilmiş E-285989 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2015-ci ildə Hüseynova Günay Rauf qızına verilmiş A-078998 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əskərov Vüqar Kamil oğluna verilmiş A-236941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Dadaşov Mirmuhəmməd Sakit oğluna verilmiş E-484174 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Haftoni qəsəbə tam orta məktəbi 2019-cu ildə bitirmiş Tağıyev Zakir Sədi oğluna verilmiş E-215749 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2007-ci ildə Vəliyeva Aytən Eldar qızına verilmiş B-081874 nömrəli bakalavr diplomu və diploma əlavə, 2009-cu ildə verilmiş MNB-011652 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Qazax filialı** tərəfindən 2014-cü ildə Qəhrəmanova (Məmmədova) Nərgiz Elxan qızına verilmiş A-030752 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Alıqulu kənd tam orta məktəbi 21.08.2020-ci ildə bitirmiş Quliyev Məhəmməd Yaqub oğluna verilmiş E-346852 nömrəli tam orta təhsil haqqında attestat tapıldığı üçün etibarlı sayılır.

**Bərdə şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Məmmədova Lamiyə Əsgər qızına verilmiş A-734120 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial İqtisad Kolleci** (keçmiş Bakı Dövlət Sosial-İqtisad Kolleci) tərəfindən 2011-ci ildə Hidayətova Zümrüd Yaqub qızına verilmiş AA-006628 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çərçiboğan kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Orucova (Ramazanova) Aysel Elman qızına verilmiş A-603303 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Abdurəhmanova (Qocayeva) Nurlanə Fərrux qızına verilmiş A-093743 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 15 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdullayeva Günel Mübariz qızına verilmiş B-607920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Əliyeva Pərvin Alı qızına verilmiş 183630 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Bəbirova Aynur Hüseyn qızına verilmiş 036467 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** M.Aranlı adına şəhər 11 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İbrahimova Rəfiqə Faiq qızına verilmiş A-157505 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 21.08.2020-ci ildə bitirmiş Dadaşova Asiman Vəlican qızına verilmiş E-265218 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Tüntül kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Qədirova Mehriban Qədir qızına verilmiş A-681277 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Əliyeva Vəfa Nadir qızına verilmiş A-033555 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan müəllimi" qəzetinin kollektivi iş yoldaşları Kamran Alışova əzizi

**ZEMFİRA ALIŞOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



# Poeziyamızda Ramiz Rövşən zirvəsi



**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

*Söz mənadan asılıdır, məna sözdən hər zaman*
*Bir-birindən asılıdır, necə ki, cism ilə can.*
*Məhəmməd Füzuli*

Gözəl şeirlərin, bitkin poetik fikirlərin məni duyğulandırdığı, hisslərimi təlatümə gətirdiyi zamandan bəri həmişə düşünmüşəm ki, sözün qüdrətindən yaranan poeziya incilərindən zövq almaq və onları qiymətləndirə bilmək taleyimə bəxş olunmuş qəlb xoşbəxtliyidir və o da xəyalımdan keçib ki, məlum söz və ifadələri musiqi kimi səslənən şeiriyyat çələnginə çevirənlər, yəqin ki, sehrbazdılar, adi adamlar deyillər. Və belə düşündüyüm dəqiqələrdə nədənsə böyük Səməd Vurğunun himn səviyyəli “Azərbaycan” şeirini xatırlayırdım. Uşaqdan böyüyə hamının yaddaşına hakim kəsilmiş adi sözlərdən cəmləşən bu poetik şedevri, əlbəttə, əsl şair yarada bilərdi.

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam, doğma vətənimsən.*
*Ayrılarmı könül candan?!*
*Azərbaycan, Azərbaycan!*

.... Hər bir insanın tərcümeyi-halı var, istər geniş olsun, istərsə qısa. Rəsmi tərcümeyi-hallar ömrün statistikasıdır, bunlarda insanın xarakteri, düşüncəsi, mövqeyi və əqidəsi, təbii ki, əks olunmur. Bununla belə, obrazlı bir deyim var ki, yaradıcı insanın keçdiyi sənət yolu, yaradıcılıq amalı onun mənəvi tərcümeyi-halıdır. Məsləki tərcümeyi-halı olanlar necə də xoşbəxtdirlər.

Bu sətirləri yazarkən qismətinə ürəklərin ağrısını, qəmini, sevincini, kədərini, qəlblərdə dilim-dilim alovlanan sevgilərin, məhəbbət və ayrılıqların yanğısını, acılı-şirinli ömür anlarını, “gəlimli-gedimli” fəlsəfəsi ilə möhürlənmiş dünyanın gərdişini, həyati həqiqətləri heyrətamiz poetik təfəkkürünün işığından keçirib talecə müxtəlif “çeşid-çeşid” insanları poeziyasının sehrli aləmi ilə ovsunlamaq, onları ruhən saflaşdırmaq, dünən, bu gün, gələcək və əbədiyyat haqda, mənəvi ucalıq və vicdan təmizliyi barədə düşüncələrlə qovuşdurmaq missiyası düşmüs müdrik bir şairin - Azərbaycan ədəbiyyatı tarixinin son iki qərinəsinin möhtəşəm ədəbi sütunlarından, söz nəhənglərindən olan Ramiz Rövşənin bəzən narahat, üsyankar, bəzən də təbəssümlü, məmnun siması gözlərim önündə canlanmaqdadır.

Taleyinə ilahidən həqiqi şairlik qismində ağır yük düşən Ramiz Rövşən kimi yaradıcı insanlar, təbii ki, tanrının seçilmişləri və sevimliləridir. Həm də bəxti belə yazılmışlar istəsələr də, o taledən qaçış qapıları üzlərinə bağlıdır, bu əzablı yolun həyatlarının sonunadək onları izləyəcəyi reallığı ilə barışmaq məcburiyyətindədirlər. Doğrudan da, sifarişlə məhəbbət, sevib-sevilmək mümkün olmadığı kimi, şəxsi istəklə də şair olmaq mümkünsüzdür.

Xalq öz şairlərini yaradıcılığı ilə bərabər, həm də mənsub olduğu mənəvi keyfiyyətlərinə görə tanıyıb dəyərləndirir. Şairin daxili aləmi, xisləti, düşüncələri, həyata, insanlara münasibəti yazdıqlarında, eləcə də “söz-əməl” fəlsəfəsində səhifə-səhifə açılır. Xarakter bütövlüyü, əqidə dönməzliyi, azadlıq eşqi həqiqi şairə bəxş edilən xoşbəxtlikdir. Həqiqi, əsl şeir də əsl şairin qələmindən pərvazlana bilər. Bu mənada “həqiqi şair insanlığın müəllimidir” deyənlər heç də yanılmırlar. Şeiri “həyatın ən böyük möcüzəsi” adlandıran dahi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın bu beyti daha müdrik səslənir:

*Şair xalqın səsi, əsrin səsidir,*
*Vətənin ağsaçlı sərkərdəsidir.*

Cəmi 49 il ömür yaşayan, həyatından çətinlik və məhrumiyyətlər əskik olmayan dahi şairimiz Mirzə Ələkbər Sabirin “Şairəm, əsrimin ayinəsiyəm” ədəbi proqram ruhlu misrası, bəlkə də, həqiqi şairlərin yaradıcılıq yolunu istiqamətləndirən və işıqlandıran bir mayakdır. Əsrin, dövrün aynası olmaq ağır yükdür və bu yükü daşımaq şərəfinin sevincini yaşamaq heç də hər kəsə nəsib olmur.

...Düşünürəm ki, belə sevinc zirvəsində məskun olmaq haqqını Ramiz Rövşən çoxdan qazanıb. Qanlı-qadalı illəri arxada qalsa da, şura-bolşevik ideologiyasının güclü təsiri hələ də duyulan ötən əsrin 60-90-cı illərində şeirlərində sovet rejiminin vəsfinə bir misra belə tapılmayan bəzi yaradıcı şəxslər var idi ki, onların arasında Ramiz Rövşənin prinsipial mövqeyi qəlbinin səsinin əks-sədası olaraq xüsusilə seçilirdi. Özünün etirafıdır ki, “Şair olmaq hər şeydən çətindi, vallah çətindi.”

Oxucunu düşündürən, vəcdə gətirən, saflaşdıran, qəlbini, hisslərini tərbiyə edən şeir, həqiqi mənada kəşfdir, ixtiradır. Görkəmli ingilis şairi Bayronun bəlkə də rəmzi mənada səslənən “Bir damcı mürəkkəb bir milyon insanı düşündürə bilər” fikrini eyni ilə Ramiz Rövşənin timsalında bu ixtiraçı şairin ixtira-şeirlərinə aid etmək mümkündür. Esselərinin birində şairin bədii-estetik cəhətdən cilalanmış gözəl bir müddəası var ki, “Hər şeirin öz çəkisi, öz boyu var. Və şeirin boyu misraların sayı ilə deyil, yay kimi sıxılıb o şeirin içinə yığılan, az qala bərkiyib maddiləşən hisslərin, duyğuların dərinliyi ilə ölçülür”. Yəni:

*Şeir açılmamış bir mərmi kimi*
*Birdən ürəkdə də partlaya bilər.*

Şübhə yox ki, insan ovqatının, emosional halının, “qəmlə köklənən” anlarının təsirindən doğan, “bərkiyib maddiləşən hisslərin, duyğuların dərinliyi”ni ifadə edən şeirlər yalnız nəfəsi “nəfəslik axtaran”, qəlbən, ruhən azad olan, “Allahla bəndə arasında dayanan” şairin bədii təxəyyülünün məhsulu ola bilər. Olanları, olub-keçənləri cəsarətlə deyib-yazmaq azad ruhun nişanəsidi (hələ komminist rejimi zamanında “Mən bulağam, tapşırıqla axmıram” yazmış ulu şairimiz Rəsul Rza yada düşür). Bu mənada ədəbiyyatımızın hakim təbiətli, incə ruhlu şairi Abbas Səhhətin mahiyyətcə ibrətamiz

*Şair odur ki, həqiqətlərə dildadə ola,*
*Şairin fikri, xəyalı gərək azadə ola.*

misraları məhz Ramiz Rövşən poeziyasının boyuna biçilib, şeirlərinin böyük əksəriyyəti insanları mənəvi azadlığa səsləyir. Necə ki, eşqi, məhəbbəti hər dəm bəlağətlə aləmə car çəkməzlər, azadlıq ruhunu da əldə bayraq etməzlər, çünki azadlıq dildə yox, əsl şairin yaradıcılığının nüvəsində, idealındadır. Mənim düşüncəmlə, Ramiz Rövşənin şeir dünyası azad ilhamın işığına bürünmüş sehrli bir aləmdir. Bu aləmdə sevgi-məhəbbət də, ayrılıq da, nifrət də, dərd, qəm, kədər də, insan taleyi və insan münasibətləri də bəzək-düzəksiz, həyati reallıq zəminində təqdim olunur.

*Deyirlər söz sözü çəkər,*
*Çəkmək olmur nadan sözü.*
*Mən neynirəm üstü şəkər,*
*Altı zəhər dadan sözü.*
*Deməyin ki, neçə söz var,*
*Kobud söz var, incə söz var.*
*Dünyada tək bircə söz var:*
*Kişi sözü, adam sözü.*

...Şairlik halı! Bu incə mətləblərdən xəbər verən, dərin psixoloji tutuma malik ifadəni poeziya leksikonuna Ramiz Rövşən gətirib və bu ifadənin bətnində qəlb çırpıntıları, sevincli, iztirablı anlar, üsyankar dəqiqələr, acı həqiqətlər, insan taleləri gizlənib, şeirləri dualarına çevrilib. “Şairlik halı” da şairə heç vaxt xilaf çıxmayıb, həmişə onu “düzü düz, əyrini əyri” yazmağa səsləyib. Onun kimi əsl şairlər tanrının seçilmişləridirsə, demək, onlar həm də tanrıdan nazil olmuş “Qurani-Kərim”in təbliğatçılarıdır, əxlaqi-mənəvi təmizlikləri və pak əqidələri ilə millətin səsidirlər.

Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun sərrast ifadə olunmuş bir fikri - “dövrün əsən yellərinə istedad yelkəni ilə sinə gərmək, xalqın nitq hissəsində feil olmağı bacarmaq” fikri eyni ilə Ramiz Rövşənin şəxsiyyətinə, xislətinə, mənəvi aləminə xas olan keyfiyyətdir. Ona hamı “fəlsəfi şair” gözüylə baxır, hər misrasında məna (bəzən sətiraltı məna) axtarır. Çünki onun dünyaya, insana, insan münasibətlərinə, həyati-mənəvi dəyərlərə, sevgiyə də, nifrətə də baxışları çox hallarda fərqlidir, qəbul edilən “qəliblər”ə rəğmən “standartdankənar” təsiri bağışlayır, hamını düşünməyə vadar edir:

*Nə çoxmuş dünyanın yükü;*
*sevgisi yük, nifrəti yük.*
*Görüşəndə - söhbəti yük,*
*ayrılanda - həsrəti yük.*
*Bu dünya bir yük ağacı,*
*hər yükün kökü insanmış.*
*İnsanın yükü dünyaymış,*
*dünyanın yükü insanmış.*

....Doğru deyirlər ki, müraciət etdiyi, qələmə aldığı mövzudan asılı olmayaraq, Ramiz Rövşənin nəzmə çəkdiyi hər bir şeiri, əslində, hazır ssenarilərdir, bunlara istinadən maraqlı, duyğulu, məhrəm məqamların ifadəsinə çevrilən süjetlər yaratmaq mümkündür. Və çox diqqətçəkəndir ki, bu şeirlərin böyük əksəriyyətində insan ömrünün yaddançıxmaz fraqmentləri, insan həyatında silinməz izlər buraxan anlar öz əksini tapır. O da maraqlıdır ki, şairin sevgi şeirlərindəki münasibətlər - keçmişdə olanları qəflətən göz önünə gətirən təsadüfi görüşlərin yaratdığı reaksiyalar, hiss və təəssüratlar, eləcə də uğursuz məhəbbət olayları, ayrılıqların təsirindən doğan həm iztirab, habelə təsəllisayaq məmnunluq duyğuları o qədər həyati reallıqla, pafossuz, riyadan uzaq, mərdanə, səmimi formada tərənnüm edilib ki, bu hal həmin şeirlərin bədii-estetik təsir gücünü, oxucunun müəllifə inamını qat-qat artıran amilə çevrilib, - desək, yanılmarıq.

*Sən mənim şerimin nəfəsi oldun,*
*Heyif, şeirim sənin qəfəsin oldu.*
*Çırpındın misralar məngənəsində,*
*Çırpıldın qafiyə divarlara sən.*
*Axır ki, şerimin daş qəfəsindən*
*Quştək uçub getdin ...*
*Getdin hara sən? ...*

Ramiz Rövşənin birbaşa neçə-neçə yaradıcı insanların sanki taleyini ehtiva edən, bu talelərin faciəsini, iztirablarını, ürək göynərtilərini yaşadan şeirləri (“Başı kəsik gözəl kötük”, “Burda bir göl vardı” və s.) böyük mətləbləri sadə dillə demək məharətindən yaranmış əsl sənət nümunələridir. Bu şeirlərin təsiri ilə xəyala daldıqda talelərini “Qara əl”lərin sındırdığı kimlər yada düşmür?! Hüseyn Cavid, Heydər Hüseynov, Mikayıl Müşfiq, Firudin bəy Köçərli, Əhməd Cavad, Məhəmməd Hadi, Abbas Səhhət... siyahını hələ nə qədər uzatmaq olar...

Ramiz Rövşənin digərlərində çox az rast gəlinən bir məziyyəti də var: o, şeirlərində feilin əmr, vacib formaları ilə yekunlaşan fikirlərlə oxucunu buxovlamır, onun düşünmək səlahiyyətini məhdudlaşdırmır, “ola bilər”, “bəlkə”, “bəlkə də” ara sözləri ilə düşünüb nəticə çıxarmağı oxucunun öz ixtiyarına buraxır, ona sanki bir “nəfəslik” verir.

*Ölüncə neçə-neçə qapıdan keçir adam,*
*Dünya üz tutduğumuz qapılarla doludu.*
*Bəlkə də üzümüzə çırpılan qapılardan*
*Üzümüzə açılan qapılar qorxuludur.*

Ramiz müəllimin elə şeirləri də var ki, bunlardan hamının mahiyyət etibarı ilə eyni cür nəticə çıxarması, sadəcə, qeyri-mümkündür. “Göy üzü daş saxlamaz”, “İlan balası”, “Bulud”, “Addım”, “Mən bir tozam” və s. bu kimi şeirləri hər kəsin daxili dünyasında müxtəlif cür əks-səda verə bilər. “Göy üzü daş saxlamaz” şeirindəki göyə daş atılmasını “hədər zəhmət”, “mənasız iş”, “uşaq şıltaqlığı” anlamında başa düşənlərin olması da mümkündür, burada fəlsəfi məna axtaranların da. Ola da bilər ki, şeirdəki “daş”, obrazlı desək, təmizliyə, aydınlığa, insan taleyinə atılan (“daş atan bilirmi nə günah eylər”) böhtan, danos, şər-xəta anlamında, eyni zamanda bumeranq mənasında qəbul edilsin. Şairin sözüdür: “Özünə qayıdır hər şey, özünə”.

*“Tanrı özü yazıb yazılanları*
*Ha pozmaq istəsən, bir xeyri yoxdur”.*

“İlan balası” şeiri həmin fəlsəfənin inikasıdır. Çox güman, təsvir edilən ilan balası qismətinə özündən asılı olmayaraq amansız tale yazılmış insanları simvolizə edir. Qəlblərində xeyirxahlıq olsa da, dillərinin “zəhəri” onlara qarşı hiddət doğurur, belələrini çoxları sevmir. Necə ki, adamlar ilan gördükdə heç vaxt zəhərinin dərdlərə dərman olduğunu düşünmədən onu qovmağa, məhv etməyə çalışırlar. Həqiqətpərəst insanların ömrünə, taleyinə məhz bəzi əqrəb xislətlilərin bir damcı zəhərləri ilə son qoymaları faktları isə tarixdən yaxşı məlumdur. Həyatın gərdişinə bax ki, belələrinin qismətinə çox vaxt vəzifə kürsülərində oturmaq düşürdü, sinələrini orden-medallar bəzəyirdi. Şeirin sonluğu tale, təbiət, xarakter etibarı ilə həyatda, cəmiyyətdə birmənalı qəbul edilməyənlərə qarşı şairin münasibətini çox aydın ifadə edir:

*Bəlkə də, ən acı həqiqət elə*
*sənsən yer üzündə, ilan balası.*
*Sənsən haqqın yolu bu yer üzündə,*
*tanrı özü seçib bu yolu bəlkə.*
*Yüz cür sifətiylə, yüz cür üzüylə*
*dünya səndən keçib durulur bəlkə...*

...Deyirlər, “şairi şair edən iztirab və dərdləridir”. Məşhur türk şairi Yunus Əmrənin sözləridir ki:

*Dərman axtardım dərdimə*
*Dərdim mənə dərman imiş.*

Ramiz Rövşən də “dərdsiz ürəyi susuz dəyirman” adlandırır. Deyir ki:

*Göz yaşları süzüldükcə*
*Adamın quru üzünə.*
*İçimizdə batan dərdlər*
*Bir-bir çıxır su üzünə.*

Həm ürəyə, həm çöhrəyə süzülən göz yaşlarının ifadəsi olaraq “dünyada çox şeyə əli çatmadığından dərdin yekəsindən yapışan” şairin qəlbində məskunlaşmış qəm, kədər onun həyatdan vaxtsız getmiş qələm yoldaşlarına, görkəmli sənətkarlara, əzizlərinə ithaf etdiyi, habelə dünyada olub-keçənlərə, “yiyəsiz qəm”ə, “ağlanmayan dərd”ə, “biganəlikdən quruyan göl”ə, “küçənin tinindəki əl açan qarı”ya həsr olunmuş fəlsəfi yüklü şeirlərində dərdli ovqat açıq-aydın hiss edilir:

*Ələ qələm alan kimi,*
*Sətirlər qaralan kimi,*
*Köynəyə sızan qan kimi*
*Kədərim varağa çıxır.*

Bəzən qəmli hallar şairi üsyankarlıq həddinə çatdırır:

*Qapılar vardı ki, yerə diz qoyub,*
*Qıfılına, kilidinə üz qoyub*
*Öpmək istəyirdim, öpə bilmədim.*
*Qapılar vardı ki, qıcıb dişimi,*
*Yumruğumu, təpiyimi, başımı*
*Çırpmaq istəyirdim, çırpa bilmədim.*

...“Mən şair işləmirəm!”. Bu çox nadir və dəyərli ifadə də Ramiz Rövşənə məxsusdur və bu sözlər mənəvi azadlıqdan, müstəqillikdən, vətəndaş mövqeyindən tutmuş qəlb rahatlığına, baş ucalığına qədər çox mətləblərə söykənir. Səmimiyyət - şairin yaradıcılığının məhək daşıdır. Şərqin böyük mütəfəkkiri Mövlana Cəlaləddin Ruminin əsl mahiyyətində səmimiyyət dayanan “Ya göründüyün kimi ol, ya da olduğun kimi görün” fəlsəfi müddəasını Ramiz Rövşənin şəxsiyyətinin, həyat yolu və taleyinin güzgüsü adlandırsaq, heç də səhv etmərik. O nə yazıbsa hamısını ürəyinin hökmü ilə, qəlbinin səsinə qulaq asa-asa, yaşadığı hansısa ovqata köklənərək yüksək səmimiyyətlə qələmə alıb. İnsan həyatının son qütbü-ölüm haqqında yazıları belə, oxucunu bədbinliyə, pessimizmə aparmaq niyyəti güdmür (hərçənd ki, belə məzmuna malik şeirlərin bəzisi bizə heç vaxt məlum olmayacaq hisslərin həyəcanından, güclü təsirindən yaranıb), əksinə, həyat haqqında düşünməyə sövq edir. Belə demək mümkünsə, ömrün müvəqqətiliyi, ölümün qaçılmazlığı insanın bəsirət gözünü açan, bu dünyaya nəyə görə gəldiyini anladan həqiqətlərdir və bu reallıq gəncindən tutmuş yaşlısınadək hamının düşüncəsinə hakimdir. Yaradıcı şəxslər isə bu həqiqəti sadəcə olaraq bədiiyyatla ifadə edirlər.

...Nobel mükafatı laureatı İosif Brodskinin “Poeziya-ən yaxşı sözlərin ən yaxşı düzümü deyil, dilin ali mövcudluq formasıdır” fikri ilə, geniş mənada düşünsək, razılaşmaq olar, çünki, həqiqətən də, dil öz yüksək məqamını-cilalanıb büllurlaşmış ədəbi dil səviyyəsini, əsasən, bədii sənət və elm adamlarının yaradıcılığında tapır. Dilin möhtəşəmliyi isə lüğət tərkibinin zənginliyi, sözlərin məna çalarlarının rəngarəngliyi, sinonimlər bolluğu, dərin fikirləri, hissiyyat aləmini kamillik səviyyəsində dolğun ifadə edə bilmək tutumu ilə ölçülür. Dil bir qaladırsa, sözlər onun müqəddəsliyini, mənəvi dəyərlərini, özünəməxsus ruhunu, təmizliyini, gözəllik və şirinliyini, yad elementlərə qarşı mübarizliyini qoruyan “müsəlləh əsgər”lərdir. Həqiqətən, “Söz Allahdan gələn və Allaha ismarlanan bir varlıqdır” (Ənvər Abbasov-tədqiqatçı dilçi-alim).

...Ramiz Rövşənin fəlsəfəsində söz təmiz vicdanların, azadlıq aşiqlərinin, mənəvi idealların, saf əqidələrin, insan ləyaqətinin, qəlbləri bürüyən sevincli-iztirablı anların səsi olaraq ilahi məqam səviyyəsinə yüksəldilir. Aşağıdakı misraları“ şair işləyən”lərə yox, daim “şairlik halında” olanlara məhz əbədi çağırış kimi səslənir:

*Aldanma heç kimə, satma heç kimə.*
*satsan, öz ömrünü sən Allaha sat!..*
*Amma Allaha da satma sözünü,*
*demə ki, satdığın varaqda sözdü.*
*Allah necə alsın özü-özünü*
*Allahın Canı yox, Allah da Sözdü...*
*Allahı dünyayla barışdırmısan,*
*qıraqda gəzməsin gözün Allahı.*
*Dünyanı Allahla bölüşdürmüsən;*
*Allahın qulusan, Sözün Allahı...*

Böyük alman filosofu İ.Kantın belə bir mülahizəsi var ki, “Dahillik olmayan yerdə poeziya ola bilməz”. Bu fikirlə, bəlkə, mübahisə etmək də olar. Amma dünyanın ən önəmli təfəkkür sahiblərindən biri olan Kant bu fikri irəli sürərkən, çox güman, hər cür poeziyanı yox, məhz əbədiyaşar poeziyanı nəzərdə tutub. Mövsümi poeziyaların, onların “şair işləyən” nümayəndələrinin heç vaxt əbədiyyat qazana bilməməsini sübuta yetirməyə isə ehtiyac yoxdur.

Ramiz Rövşən poeziyası, ədalətlə desək, əbədiyaşarlıq zirvəsinə artıq çoxdan yüksəlib, bu poeziya qeydsiz-şərtsiz əsl poeziya hesab edilirsə, demək, dahiliyin mövcudluğu şəraitində yaranıb. Görkəmli ədəbiyyatşünas - alim, filosof Asif Əfəndiyev (Asif ata) vaxtilə televiziyadakı çıxışında belə bir fikir işlətmişdi ki, “Dahilik-zəmanənin dərd-qəmini, əzab-əziyyət yükünü öz çiyinlərində daşımaqdır”. Ramiz Rövşən də yazır ki:

*Yük altında göynəyir kürəyimin qabarı,*
*Yük altında təngiyir hər addımda nəfəsim.*
*Nə atmağa qıyıram, nə gücüm var aparım*
*Hayandasan, di gəl çıx, ay bu yükün yiyəsi.*

...Düşünmək olar ki, o yük şairin Tanrı qarşısında öhdəliyinin yüküdür, tale yüküdür və bu yükü şairə qismət edən onu daim pənahında saxlayır. Şair özü gözəl deyib:

*Haqq sözə nökərik nökər,*
*Biz çəkən yükü kim çəkər?!*
*Qanımız halaldı, əgər*
*Köynəyimiz bayraq olsa!*

Sənət aləmində “ardıcıllar”, “...məktəbinin davamçıları” ifadələrini həmişə eşitmişik...

Bu mənada, düşünürəm ki, görəsən, Ramiz Rövşəni hansı şairin (şairlərin) ardıcılları, hansı məktəbin davamçıları siyahısına daxil etmək olar?! Hərçənd ki, onun yaradıcılığında ulu şair Rəsul Rza məktəbinin təsiri hiss olunur, bununla belə, mövzu aktuallığı, dünyəvi olaylara fəlsəfi münasibət, təfəkkür çevikliyi, adidə qeyri-adini duyma, görmə bacarığı, deyim və təsvir tərzi, sözdən, sözün məna çalarlarından ustalıqla istifadə baxımından yenilik, novatorluq ruhu inkarolunmazdır və belə olan halda Ramiz Rövşən yaradıcılığı özü möhkəm özül üzərində qurulmuş bir məktəbdir.

...Bu yazını lap əvvəl virtual müsahibə formasında hazırlamağı nəzərdə tutmuşdum, sonra fikirləşdim ki, özünü şəxsən tanımadığım üçün bəzi suallara cavabda onu qane etməyən məqamlara toxuna bilərəm, yaxşı alınmaz. Amma bənzərsiz şeiriyyatına ürəkdən bağlandığım bu böyük şairlə nə vaxtsa yaşadığımız şəhərdə görüşmək fikri məni tərk etmir. Axı “ayrıca şəhərimiz yox”dur.

Yazını bu yerdə bitirmək də olardı (əslində, Ramiz Rövşənin ədəbi yaradıcılığına belə adi bir məqalə yox, ciddi tədqiqat əsərləri yazılmalıdır), lakin çoxdandı ürəyimdə gizlənən bir arzu da vardı, görəsən, şeir qoşmaq məndə alınar, ya yox?! Çünki aqillərdən biri deyib ki, “bütün insanlar ürəklərində şairdirlər”. Fikirləşdim ki, məqamdır, düşünüb bir forma da tapdım: misraları şairin adı və soyadının birinci hərfləri ilə başlanmaqla onun dilindən söylənən öz aləmimdə bir şeir əmələ gətirməyə çalışdım:

***R****əbbim verdi bu taleyi, mənə sevinc bəxş eylədi,*
***A****zadlıq biçdi ruhuma, məni qanadlı eylədi.*
***M****ənli-mənsiz bu dünya da elə həmənki dünyadı,*
***İ****çimdən keçdi ağrısı, ürəyim qubar eylədi.*
***Z****alımların adətidi, daim zəhər püskürərlər,*
***R****ahatlıq nədi bilməzlər, ancaq ədavət səpəllər.*
***Ö****lüm haqdı, gələn gedər, gedən gəlməz,*
***V****ar-dövlətdən bərk yapışma, ömrün bir anına dəyməz.*
***Ş****airin, şeirin, sənətin qiymətini “arif olan sərraf” bilər,*
***Ə****lində hökm olana dastan da yazsan, umma ki, qədrin bilər.*
***N****ələr keçdi ömrümüzdən, kimlər ötdü yanımızdan,*
*Niyyətim, əqidəm, məsləkim heç*
*enmədi ucalıqdan.*

...Hər bir şair arzulayır ki, oxucuları, pərəstişkarları çox olsun, yazdıqları rəğbətlə qarşılansın, şeirləri dillər əzbəri olsun.

Ramiz Rövşən o xoşbəxt şairlərdəndir ki, yaradıcılığa başlayandan ta bugünümüzə qədər həmişə oxucu bolluğu ilə əhatə olunub, şeirləri minlərlə insanın dilinin əzbəridir, istər yaşlı, istərsə də gənc nəsil tərəfindən ona xüsusi məhəbbət bəslənilir, kitabları bir göz qırpımında alınır, əldən-ələ gəzir.

Hərdən düşünürəm ki, Ramiz Rövşən şair olmasaydı, görəsən, hansı peşənin sahibi ola bilərdi?! Onun böyük şairlərimizə həsr etdiyi esselərini oxuyandan sonra bu qənaətə gəlirsən ki, şair olmasaydı Ramiz Rövşən, yəqin ki, sanballı, mahir ədəbiyyat tədqiqatçısı kimi məşhurlaşardı. Amma bizim ədəbiyyatımızın xoşbəxtliyidir ki, tale ona möhtəşəm şairlik istedadı bəxş edib və təxminən minillik tarixi olan poeziya xəzinəmiz artıq qırx ilə yaxındır ki, onun da poetik inciləri ilə zənginləşir və hələ bundan sonra da zənginləşməkdə davam edəcəkdir.